AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

16 YANVAR 2019-cu il ÇƏRŞƏNBƏ № 11 (6338) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Konsulluq xidmətlərinin göstərilməsində şəffaflığın artırılması məqsədilə "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Konsulluq xidmətlərinin göstərilməsində şəffaflığın artırılması məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, N9, maddə 858; 2013, N 2, maddə 109, N 3, maddə 254, N 4, maddə 377; 2014, N 2, maddə 117, N 5, maddə 486, N 9, maddələr 1027, 1044, 1048; 2015, N 6, maddə 708, N 8, maddə 917, N 10, maddə 1122; 2016, N 2 (II kitab), maddə 251, N 5, maddə 852, N 8, maddə 1384, N 9, maddə 1464; 2017, N 2, maddə 174, N4, maddə 564, N 5, maddə 809, N 8, maddələr 1521, 1531; 2018, N 3, maddə 437, N 6, maddə 1242, N 10, maddə 2013; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 noyabr tarixli 340 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* 5.18-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 5.19-cu bənd əlavə edilsin:

"5.19. konsulluq xidmətləri ilə bağlı:

5.19.1. xidməti və diplomatik pasportların verilməsi və dəyişdirilməsi;

5.19.2. sənədə apostil verilməsi və sənədin leqallaşdırılması;

5.19.3. viza rəsmiləşdirilməsi üçün xarici ölkələrin səfirliklərinə və konsulluqlarına notanın verilməsi.";

*1.2.* 6-cı hissədə "İqtisadiyyat Nazirliyinə" sözlərindən sonra ", Xarici İşlər Nazirliyinə" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi xarici ölkələrdə müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarına, habelə xarici ölkələrdə olan Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə konsulluq xidmətlərinin "Elektron hökumət" portalı vasitəsilə elektron qaydada göstərilməsini təmin etmək məqsədilə zəruri tədbirlər görsün.

**3.** Bu Fərman 2019-cu il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 15 yanvar 2019-cu il.**

## G.Q.İsmayılzadənin Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Gürsel Qüdrət oğlu İsmayılzadə Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 15 yanvar 2019-cu il.**

## A.N.Alışanovun "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Arif Nizam oğlu Alışanov "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 15 yanvar 2019-cu il.**

# Prezident İlham Əliyev Fransanın sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də ölkəmizdə səfərdə olan Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Nikola Sarkozi bir neçə il bundan əvvəl Azərbaycana səfərindən ötən dövr ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Bakıda həyata keçirilən böyük quruculuq və abadlıq işlərinin şahidi olduğunu dedi və bütün bu inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını qeyd etdi.

Prezident İlham Əliyev xoş sözlərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Nikola Sarkozinin 2007-2012-ci illərdə Fransanın Prezidenti olduğu dövrdə Azərbaycan-Fransa münasibətlərinin möhkəmləndiyi vurğulanıb, bir çox sahələrdə əlaqələrimizin böyük inkişaf yolu keçdiyi qeyd edilib. Azərbaycan Prezidenti və Nikola Sarkozi öz aralarında keçirilən görüşləri məmnunluqla xatırlayıblar. Qeyd olunub ki, həmin dövrdə təhsil sahəsində əməkdaşlığın yeni çərçivələri məhz Prezident İlham Əliyev və Nikola Sarkozinin birgə səyləri nəticəsində mümkün olub. Bakıda hər iki Prezidentin iştirakı ilə Fransız liseyinin təməlinin qoyulması əlamətdar hadisə kimi dəyərləndirilib. Həmin illərdə yüksək səviyyəli siyasi əlaqələrin möhkəmlənməsi nəticəsində bir çox fransız şirkətləri Azərbaycanda fəaliyyətə başlayıb və ya öz fəaliyyətini genişləndiriblər.

Nikola Sarkozi ona göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Prezident İlham Əliyev, öz növbəsində, Nikola Sarkozini yenidən Azərbaycanda görməyindən məmnun olduğunu ifadə edib.

**AZƏRTAC**

## Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətini optimallaşdırmaq, strukturunu və idarə edilməsini daha da təkmilləşdirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki kitabxanalar ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində yeni, mütərəqqi və ölkənin bütün ərazisini əhatə edəcək kitabxana sisteminin yaradılması, habelə mədəniyyət və təhsil xidmətləri göstərən qurumların (mədəniyyət mərkəzləri, klublar, musiqi məktəbləri, rəsm qalereyaları və s.) fəaliyyətində səmərəliliyin artırılması məqsədilə təkliflər hazırlanması üçün aşağıdakı tərkibdə Komissiya yaradılsın:

**Komissiyanın sədri**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri

**Komissiya sədrinin müavini**

Azərbaycan Respublikasının mədəniyyət naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsi müdirinin müavini

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsi müdirinin müavini

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası təhsil nazirinin müavini

Bakı Şəhər İcra Hakimiyyətinin nümayəndəsi.

**3.** Bu Fərmanın 2-ci hissəsinə əsasən yaradılan Komissiya (bundan sonra - Komissiya) beynəlxalq təcrübəni nəzərə almaqla, aşağıdakılarla bağlı təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

*3.1.* informasiya-kommunikasiya texnologiyalarının imkanları, habelə mövcud tələbat nəzərə alınmaqla, ölkədə kitabxana sisteminin yenidən qurulması;

*3.2.* dövlət mülkiyyətində olan muzeylərin inventarizasiyasını apararaq, onların fəaliyyətinin optimallaşdırılması və daha təkmil muzey fəaliyyətinin təşkili;

*3.3.* Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki musiqi məktəblərinin inventarizasiyasını aparmaqla, onların fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə inzibati-ərazi vahidləri üzrə daha kompakt təşkili;

*3.4.* mədəniyyət mərkəzlərinin, mədəniyyət evlərinin və klubların, rəsm qalereyalarının inventarizasiyasını aparmaqla, onların fəaliyyətinin təkmilləşdirilməsi, mövcud tələbat nəzərə alınmaqla, ölkənin inzibati ərazi vahidləri üzrə daha kompakt təşkili və xidmət səviyyəsinin yüksəldilməsi.

**4.** Bu Fərmanın 3.1-ci bəndinə əsasən təqdim olunacaq təkliflər əsasında ölkədə yeni kitabxana sistemi formalaşanadək Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki mövcud kitabxanalar öz fəaliyyətini davam etdirsinlər.

**5.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti Komissiyada təmsil olunacaq nümayəndələri barədə təkliflərini on gün müddətində hazırlayıb Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim etsinlər.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*6.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*6.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*6.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*6.4.* Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin ləğvinin təmin edilməsi ilə bağlı bir ay müddətində tədbirlər görsün.

**7.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi:

*7.1.* Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*7.2.* bu Fərmana əsasən ləğv olunan qurumlarında işləyən işçilərin Nazirliyin tabeliyində olan digər qurumlarda müvafiq vakant vəzifələrə təyin edilməsi ilə bağlı tədbirlər görsün və nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**8.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 15 yanvar 2019-cu il.**

# Nazirlər Kabineti Aparatının növbəti iclası keçirilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda qaldırılan məsələlərlə əlaqədar Nazirlər Kabineti Aparatının növbəti iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Novruz Məmmədov 2018-ci ildə ölkəmizin əldə etdiyi uğurlu nəticələrdən, aparılan iqtisadi islahatlardan, yeniliklərdən bəhs edib və iclas zamanı Prezident İlham Əliyevin qeyd etdiyi istiqamət və hədəflərin hökumət üçün əsas meyar olduğunu bildirib. Ötən ildə atılan addımlar iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin artırılması baxımından ölkəmizin dünya miqyasında reytinqinin yüksəlməsinə səbəb olub. Xüsusən də, vergi və gömrük sahələrində institusional dəyişikliklər, şəffaflıq və sağlamlaşdırma tədbirləri müsbət nəticələr verib. Əhalinin aztəminatlı hissəsinin, şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin, məcburi köçkünlərin sosial problemləri daim dövlətin diqqət mərkəzindədir.

İlin mühüm hadisələri olan "Azerspace-2" peykinin orbitə çıxarılması, Cənub Qaz Dəhlizinin, TANAP qaz kəmərinin, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının, Türkiyədə ən böyük layihələrdən olan "STAR" neft emalı zavodunun açılışları, Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın imzalanması dövlətimizin başçısının apardığı məqsədyönlü siyasətin əməli nəticələridir.

Baş nazir vurğulayıb ki, 2019-cu ildə də ölkəmizdə mühüm işlərin həyata keçirilməsi, idarəetmədə yeni yanaşmanın tətbiq olunması nəzərdə tutulub. Bu il yeni Sumqayıt-Rusiya sərhədi yolunun inşası, həmçinin 100-dən çox məktəb binasının tikintisi, 10-a yaxın mərkəzi rayon xəstəxanasının, üç Olimpiya İdman Kompleksinin, beş "ASAN xidmət" mərkəzinin, Bakı şəhərində "DOST" mərkəzlərinin istifadəyə verilməsi nəzərdə tutulur.

Aqrar sahənin inkişafına nəzər salan Baş nazir Novruz Məmmədov ötən ildə aparılmış meliorativ tədbirlər nəticəsində əkin dövriyyəsinə cəlb olunmuş torpaqların səmərəli istifadə edilməsi ilə bağlı tədbirlər barədə də danışıb.

Sonda sosial-iqtisadi inkişafın nəticələrinə dair fikir mübadiləsi aparılıb, Prezident İlham Əliyevin iclasda verdiyi tapşırıqların icrası ilə əlaqədar hökumət tərəfindən həyata keçirilməsi nəzərdə tutulan tədbirlərlə bağlı Nazirlər Kabineti Aparatının aidiyyəti şöbələrinə müvafiq göstərişlər verilib.

**AZƏRTAC**

*Ramiz MEHDİYEV*

# Qriqorian kilsəsi Səfəvi dövlətinə qarşı casusluq aləti kimi

## (XVII əsr - XVIII əsrin birinci rübü) *

### *"Köhnə peşə ilə" təzə sifarişçinin xidmətində: ermənilər Səfəvi dövlətində Qərb casusluğunun əsas həlqəsidir*

Məlum olduğu kimi, XVI-XVII əsrlər bəşəriyyət tarixində böyük coğrafi kəşflər və çoxəsrlik müstəmləkəçilik dövrünün başlanğıcı kimi səciyyələndirilir. Məhz o zaman Avropanın nəhəng dəniz dövlətləri - Portuqaliya, İspaniya, İngiltərə, Hollandiya arasında bir qədər əvvəl Amerika qitəsində kəşf edilmiş torpaqlar, həmçinin ənənəvi Şərq bazarları - Hindistan, İran, Çin, Orta Asiya və Qafqaz uğrunda mübarizə vüsət götürür. Vatikan Qərb dövlətlərinin Şərqə, xüsusən müsəlman dünyasına təcavüzündən istifadə edərək bu torpaqlarda xristian, daha doğrusu, katolik inancını yaymaq üçün əlindən gələni etməyə başladı. Hər növbəti işğaldan sonra yerli əhalinin zorla xristianlaşdırılması prosesi gedirdi. Ona görə Vatikan o vaxtkı dünyanın müxtəlif regionlarında İspaniya və Portuqaliyanın müstəmləkəçilik siyasətini birmənalı olaraq dəstəkləyirdi.

Əgər bu proses Amerika qitəsində inklər, asteklər, mayyalar kimi çox qədim sivilizasiyaların kütləvi surətdə məhv edilməsi ilə müşayiət olunurdusa, Yaxın Şərqdə qüdrətli müsəlman dövlətlərinin olması, eləcə də Qərbin qarşısında digər diplomatik və iqtisadi məqsədlərin mövcudluğu Vatikandan daha səliqəli, üstüörtülü yanaşma, səbir və ardıcıllıq tələb edirdi.

Bildiyimiz kimi, qeyd edilən dövr həmçinin Osmanlı-Səfəvi müharibələrinin yüksək nöqtəsi və Osmanlı Türkiyəsinin Avropanın dərinliklərinə maksimal irəliləyişilə xarakterizə olunur.

Bu cür beynəlxalq vəziyyət Səfəvilərlə Qərb arasında xeyli ümumi təmas nöqtələri yaradır və Azərbaycan hökmdarlarını bir çox onilliklər xristian dünyasıyla yaxınlaşdırır. Böyük Şah Abbasın hakimiyyətə gəlişindən sonra bu yaxınlaşma sıx hərbi-siyasi və iqtisadi əməkdaşlığa keçir və hər bir tərəf bundan özü üçün maksimal mənfəət götürməyə çalışır.

Şah Abbası hər şeydən artıq Türkiyəylə müharibədə uğuru təmin etmək üçün qoşunun yenidən təcili texniki təchizatı, artilleriya və odlu silahın kütləvi tətbiqi problemləri narahat edirdi. Şah Abbas həmçinin, ona qədər Azərbaycan ipəyinin əsas eksport marşrutunun səfəvilərin başlıca rəqibi olan osmanlıların ərazilərindən keçməsini istəmirdi. İpək tədarükünün əsas ticarət yolunu dəyişib Fars körfəzi zonasına keçirərək o, Avropa tacirlərinin bu strateji və faydalı mala birbaşa çıxışını təmin, türkləri iqtisadi şantajın təsirli vasitəsindən məhrum edirdi. Bu planların həyata keçməsi üçün Şah Abbas müvəqqəti olaraq Azərbaycanda və İranda onlarla xristian dünyası arasında vasitəçi rolunda çıxış edən müxtəlif xristian ordenlərinin güclənməsinə göz yummalı olurdu.

Məlum olduğu kimi, katolik missiyasının Səfəvi dövlətinə ayaq açması ilk olaraq diplomatik məqsədlərlə bağlı idi. Hərbi-texniki və ticari-iqtisadi xarakterli məsələlərdə Qərblə əməkdaşlığın qaçılmaz olduğunu anlayan Şah Abbas padşahlığının əvvəllərində təşəbbüs göstərərək Avropanın aparıcı dövlətlərilə daimi əlaqə yaradılmasına çalışır. Səfəvi hakiminin dəvətilə bəzi orden nümayəndələri, o cümlədən karmelitlər uzunmüddətli diplomatik missiya ilə İrana gəlirlər. Şah Abbas hətta avropalıları bu ərazilərə cəlb etmək üçün onun tabeliyində olan torpaqlarda azad şəkildə xristian moizələri oxumağa icazə verən xüsusi fərman verir. Qərb diplomatiyasının prioritet istiqamətləri siyahısına daxil olan Səfəvi dövləti ərazilərində bu həyati vacib məsələni yerinə yetirmək üçün əsasən üç xristian ordenindən - karmelitlər, kaputsinlər və yezuitlərdən ibarət daha təcrübəli, yaxşı öyrədilmiş və sınaqdan keçirilmiş rahiblər cəlb edilirdi. Sonralar karmelitlər və yezuitlər daha çox uğur qazanırlar. Səfəvilərin ərazisinə ilk xristian missioner təşkilatlarının gəlişinin dəqiq tarixini söyləmək mümkün deyil, lakin onların XVII əsrin əvvəllərində güclənməsi faktı heç bir şübhə doğurmur.

Tədqiqatçı L.A.Semyonova anonim mənbə "Karmelitlərin xronikaları"na istinad edərək ilk karmelitlərin Səfəvi ərazilərinə gəlmələri barədə deyir: "Anonim naşir karmelitlərin Şərqdə peyda olmalarını birtərəfli - yalnız Səfəvi şahı I Abbasın türklərlə birgə mübarizə məqsədilə Avropa dövlətlərilə ittifaqa girmək cəhdilə əsaslandırır. O, şahın Roma kuriyasıyla yazışmalarından və səfirlik hesabatlarından bəzi sitatlar gətirərək bildirir ki, ordunun yeni silahlarla təchiz edilməsində bir sıra yardımlara nail olaraq, Avropayla gələcək əlaqələrin möhkəmlənməsinə can atan I Şah Abbas 1599-cu ildə İranda xristian moizələrinin azadlığını elan etdi və papa VIII Klimentə ölkəsinə daimi səfirlik göndərməsi xahişilə müraciət ünvanladı. Bu xahiş papa tərəfindən xoş qarşılandı və 1604-cü il 4 iyulda İsfahana ayaqyalın karmelitlər ordeninin bir dəstə rahibi göndərildi".

Karmelitlər uzun müddət öz birbaşa rollarını - Səfəvilərlə Qərb, xüsusən Vatikan arasında vasitəçi diplomatlar funksiyasını böyük uğurla icra edirdilər. Rahiblərin başlıca vasitəçilik vəzifələrinə tərəflər arasında intensiv diplomatik mübadilənin təmin edilməsi, həmçinin şah sarayında antitürk əhvalın qorunması və qızışdırılması daxil idi. Aydındır ki, missioner ordenləri nümayəndələrinin Səfəvi paytaxtında peyda olmasından sonra şahın Qərbə diplomatik missiyasının sayı xeyli artır: "Rahiblər Şah Abbasın Avropa dövlərlərilə birgə antitürk ittifaqı yaratmaq siyasəti ilə əlaqədar onun iltifatından istifadə edib şah sarayına ayaq açaraq, tez-tez həm şahın, həm də Avropa dövlətlərinin səfiri qismində diplomatik tapşırıqlar yerinə yetirirdilər.

1610-cu ildə Şah Abbas tərəfindən Fransa kralı IV Henriyə göndərilmiş ilk səfir kapustin pater Jüst olub, amma o, Parisə artıq Fransa kralının ölümündən sonra gəlib çatıb". Şah Abbasın diplomatik sahədə missionerlərin xidmətinə müraciət etdiyi digər misallar da məlumdur: "Karmelitlər diplomat qismində şahın mühüm tapşırıqlarını icra edirdilər. 1611-ci ildə Tadeus ata şah tərəfindən Polşa və Rusiyaya bu dövlətlərin hökmdarlarına türklərlə fəal birgə mübarizə çağrışı və Türkiyəni tranzit ticarəti mənfəətindən məhrum etmək üçün İran ipəyinin və digər malların bu ölkənin üzərindən daşınmasını dayandırmaq təklifilə göndərilmişdir.

...Redempt ata Robert Şerlinin ikinci səfirliyilə birlikdə Abbas tərəfindən papa və İspaniya kralı III Filippin yanına türklərlə birgə mübarizəylə bağlı danışıqlar və İspaniyayla Hörmüz üstündə ziddiyyətlər üzündən korlanmış dostluq münasibətlərini bərpa etmək üçün göndərilmişdir".



Lakin missioner fəaliyyətlə pərdələnmiş Avropa diplomatiyası və kəşfiyyatının moizə oxumaqla və vasitəçiliklə məşğul olduğunu düşünmək sadəlövhlük olardı. Əsla belə deyildi! Hətta hazırda elmi ictimaiyyətin sərəncamında olan materialların məzmunu belə missionerlərin davranışlarında kəşfiyyat fəaliyyəti elementlərinin olduğunu aydın göstərir: "Bu missiya nümayəndələrinin qeydlərində karvan və dəniz yolları haqqında məlumatlarla yanaşı, Azərbaycanın və İranın iqtisadiyyatı, dövlət quruluşu, diplomatik vəziyyəti, din və məişəti barədə yazılar da vardır". L.A.Semyonova, öz növbəsində, karmelitlərin yazışmalar üçün kənar şəxslərə məlum olmayan xüsusi şifrələmə sistemindən istifadə etdikləri faktı da diqqəti cəlb edir: "Göndərilən bütün yazılar iki nüsxədə tərtib edilirdi; özü də İsfahanda, Bəsrədə və Qoada olan şifrələr işlədilirdi". Yəni bu sistem papa kəşfiyyatına kifayət qədər geniş məkanda - İran və Azərbaycandan Hindistana qədər zəruri məlumatları bir-birinə təhlükəsiz rejimdə göndərmək imkanı verirdi. Bu fakt, şübhəsiz, katolik missiyanın fəaliyyətinin qətiyyən Allahın kəlamlarını vəz etmək və həqiqət yolundan sapanlara öyüd-nəsihət verməklə məhdudlaşmadığını göstərən növbəti təkzibedilməz dəlildir.

Missionerlərin, xüsusən də karmelit ordeninin qısa müddət ərzində Səfəvi dövləti ərazilərində möhkəm bərqərar olduqlarını etiraf etməmək mümkün deyil. Bu uğuru əsasən həmin strukturları idarə mexanizminin yaxşı təşkili şərtləndirirdi: "Bütün bu karmelit yuvaları Avropada təşəkkül tapmış dəqiq və mərkəzləşdirilmiş sistem əsasında idarə olunurdu. Bütün karmelitlər İranda Roma kuriyasının təyin etdiyi İsfahan vikarisinə — ordenin fars əyaləti başçısına tabe idi.

...Karmelitlərin vikarisi qeyd olunan ərazidə missiyası olan digər ordenin vikariləri kimi eparxiyası Qara dənizdən Fars körfəzinədək uzanan İsfahan yepiskopuna tabe olurdu.

...Rahiblərin fəaliyyətinə nəzarət etmək üçün Romadan vaxtaşırı inspektorlar göndərilirdi. Hər bir karmelit casusluğunun başçısı maliyyə mədaxili və məxaricini qeyd etməli, eləcə də (əyalət vikarisi vasitəsilə) kuriyaya missiyadakı vəziyyət barədə informasiya verməli idi.

...Vikarinin icazəsi olmadan rahib ölkədən çıxdıqda həbslə cəzalandırılırdı. Karmelitlərin bir iqamətgahdan digərinə köçürülməsi həmçinin yalnız vikarinin əmrilə baş verirdi".

Bu missiyaların pulla təmin edilməsinə, digər məsələlərlə yanaşı, xüsusi yer ayrılırdı. "Karmelitlərin xronikası" bildirir ki, ordenin nümayəndələri demək olar ki, sədəqə toplamır, belə qazancı imicə əskiklik və pastva üçün qeyri-effektiv hesab edirdilər. Səfəvi dövlətinə ilk gəlmiş karmelitlərdən biri olan Tadeusun dedikləri kifayət qədər maraqlıdır: "Biz bir qarın çörək üçün qapı-qapı gəzib beş-on abbası istəyərək, bu yerlərdə hər şeydən yüksək qiymətləndirilən ad-sanımıza ləkə gətirə bilmərik".

Karmelitlərin əsas maliyyə mənbəyi Vatikan idi. 1656-cı ildən başlayaraq orden illik pul maaşına keçir.

Orden Səfəvi sarayında fəaliyyət göstərən Avropa dövlətləri səfirliklərindən xeyli maddi, eləcə də siyasi dəstək alırdı. Qərb elçiləri katolik missionerlərinə yardım etməyi, onları təhlükə anlarında qorumaq və vəziyyətdən çıxarmağı öz mənəvi borcları sayırdılar. Missionerlər İranda şah sarayındakı xarici dövlətlər səfirliklərinin himayəsi altında idilər. Onların missiyası haqda anonim müəllif bildirir: "Bu səfirliklər İran krallığında xristian dininin ən möhkəm dayağıdır. Missionerlər orada maraqları onları məsləhət bilmiş xristian dövlətləri üçün dəyərli olan şəxslər kimi görülür; əyanlar və saray əhli onları "qonaq", yəni kralın qonaqları adlandırır; onlar vergidən kənar, azad insanlardır və evləri müsəlmanlığın ən mərkəzində pənahgah kimi sayılır". Səfəvi dövləti ərazisində fəaliyyət göstərən karmelitlər arxalarında təkcə Qərb səfirliklərinin dəstəyini deyil, həm də ən əsas nüfuzlu Avropa monarxlarının himayəsini hiss edirdilər: "Polşa kralı Vladislav (1638-1648), Fransa kralı IV Lüdovik (1643-1715), I Leopold Qabsburq (1658-1705), XVIII əsrin əvvəllərində isə Venesiya doju özlərini İran karmelitlərinin rəsmi protektoru hesab edirdilər".

Qərb kapitalının yaxın Şərq bazarında mövqeyinin gücləndirilməsində rahiblərin həqiqətən əvəzsiz köməyinə həmişə səxavətlə qarşılıq verən Avropa tacirləri onların daha bir maliyyə gəliri kanalı idi. Məsələ ondadır ki, Səfəvi dövlətində fəaliyyətlərini yoluna qoyan missionerlər Avropa ticarətinin etibarlı bələdçisinə çevrilmişdilər və bu ticarət üçün həmişə əlverişli olmayan mühitdə ona hər cür dəstək olurdular: "Bir çox sənədlər karmelitlərin fəallığını Avropa tacirləri, səyyahları və müstəmləkə administrasiyası nümayəndələri ilə qarşılıqlı münasibət kimi vacib sahəsini aşkara çıxarır. Ticarət işlərinə görə İrana gəlmiş, yaxud Hindistana və digər ölkələrə yollanan Avropa tacirləri adətən mehmanxana kimi karmelit missiyalarında qalırdılar: hər şeydən xəbərdar rahiblər onlara zəruri informasiya verirdilər. Şarden ayaqyalın karmelitləri "bütün Avropa səyyahlarının böyük təskinliyi" adlandırırdı; o özü 1678-ci ildə Şirazda və İsfahanda karmelitlərin yanında qalıb. Fars körfəzi limanlarında olan karmelit missiyaları qeyd olunan dövr ərzində Hindistan yolu üstündə bu sulardakı hakimiyyəti bir-birindən alan bütün Avropa dövlətləri nümayəndələrinə böyük kömək edirdilər; karmelit rahibləri tərcüməçi, həkim, yerli rəsmilərlə vasitəçi vəzifələrini yerinə yetirir, Avropaya məktub çatdırırdılar; dənizçilərin rahatlığı üçün onlar tərəfindən Moskatedə mehmanxana tikilmişdi".

Fars körfəzi bölgəsində İranda və Azərbaycanda müxtəlif Qərb dövlətlərinin siyasi və iqtisadi maraqlarına xidmət edərək karmelitlər onların arasında fərq qoymurdular, yalnız Avropanın və xristianlığın ümumi maraqlarını əldə rəhbər tutaraq bu və ya digər dövlətin tərəfini saxlamağa çalışırdılar: "Karmelitlər portuqaliyalıları əvəz etmiş hollandlara və ingilislərə eyni səylə xidmət göstərirdilər, özü də hollandların protestant olmaları karmelitləri qətiyyən narahat etmirdi; karmelitlər onları da ingilislər kimi dost millət sayırdılar".

Bu cür praqmatik ideoloji siyasət yürütmələri sayəsində karmelitlər Avropa dövlətləri nümayəndələrinin hamısından daimi maliyyə yardımı alır, həmçinin Asiya, Afrika və Amerikanın növbəti bölgələri işğal olunduqca öz torpaqlarını genişləndirirdilər. Belə ki, məsələn, hollandlar Xarak adasını tutduqdan sonra karmelitlərə burada öz monastırlarını və icmalarını yaratmaq üçün xüsusi icazə verilmişdi, əlbəttə, orden nümayəndələri tərəfindən Holland tacirlərinə göstərilən kömək və yardıma görə minnətdarlıq nişanəsi kimi: "Lütfkar Şərqi Hindistan şirkəti adından biz çox hörmətli ayağıyalın karmelit Angelus-Feliks ataya bu adada kilsə inşa etməyə və qüdrətli Tanrı şərəfinə xristian əhali və xaricilər üçün Roma katolik ayinlərinə müvafiq ibadətə icazə veririk, o şərtlə ki hansısa başqa ordenin rahibləri deyil, yalnız ayağıyalın karmelitlər burada məskən sala bilər".

Karmelitləri hollandların barışmaz rəqibi portuqallar da Hind okeanında 1961-ci ilədək Portuqaliyanın nəzarətində olan Qoa adasında eyni qonaqpərvərliklə sığındırmışlar. Avropa tacirlərinin maliyyə yardımı hesabına böyük gəlirləri olan Qoa adasındakı karmelit monastırı bir müddətdən sonra hətta sanballı kreditora çevrilmişdir. XVI əsrin ikinci yarısında monastır Romadakı müqəddəs Pankratiy seminariyasının bütün xərclərini öz üzərinə götürdü, İran karmelitlərinə davamlı maliyyə yardımı göstərməyə, həmçinin bir çox xarici tacirlərə, o cümlədən ermənilərə kredit verməyə başladı. İraqın Bəsrə şəhərindəki karmelitlər də oradakı təbəələrə göstərdikləri hər cür köməyə görə Portuqaliya kralından daimi maddi yardım alırdılar.

İngilis tacirləri də karmelitlərə borclu qalmırdı. Belə ki, 1719-cu ildə ingilis taciri Ceyms Nevil karmelitlərə üç bahalı günəş saatı təqdim etdi, ingilis gəmisi "Yekaterina"nın kapitanı isə onlara hədiyyə olaraq bahalı Çin vazaları gətirdi.

XVII əsrin sonlarında orden o qədər təmin olunmuş idi ki, onun rəhbərləri aparıcı ticarət şirkətlərinə sanballı yatırımlar etməyə və bundan böyük qazanc götürməyə başladı. Məsələn, L.A.Semyonova yazır ki, karmelitlər fransız Ost-Hindistan şirkətinə 7000 rupiy qoymuşdular və 1710-cu ilədək öz gəlirlərindən istifadə edirdilər.

Mübaliğəsiz demək olar ki, qeyd olunan bu faktlar Yaxın və Orta Şərqdə kifayət qədər qısa müddət ərzində katolik missiyaların, o cümlədən karmelitlərin gücünün, nüfuzunun, imkanlarının və fəaliyyət missiyasının yalnız müəyyən faizini nümayiş etdirir.

Tarixin bütün mərhələlərində Eçmiədzin öz çoxsaylı əlaqə və mənbələri sayəsində beynəlxalq məsələlərin real vəziyyətindən kimdənsə az hali deyildi və bu da ona yeni himayədarlar axtarışında yaxşı istiqamətlənməyə imkan verirdi. Etiraf edilməlidir ki, bütün abırsızlığı və satqınlığıyla yanaşı, Eçmiədzin strateqləri həmişə işbazlıq istedadı, praqmatizm və şəraitə uyğunlaşmaq bacarığı ilə seçilirdilər. Onlar heç vaxt nağdı qoyub nisyə dalınca qaçmazlar. Praqmatizm və məkrdə onların tayı-bərabəri yoxdur.

Eçmiədzin və erməni tacirləri kənar güclərlə əməkdaşlığı həmişə tarixin konkret mərhələsindəki istəklərinə, maraqlarına və real hərəkət imkanlarına uyğun şəkildə qururdular. Bu baxımdan Səfəvi dövrü də istisna olmayıb. Qərb diplomatiyasının və katolik missiyaların niyyətlərinin mahiyyətini anlayan İran və Azərbaycana gəlmiş ermənilər uğurla siyasi proseslərin havasına köklƏndilər. Ermənilər Vatikan missionerlərinə lazım olanları - bütün ölkəni əhatə edə bilən casus şəbəkəsinin təşkilinə yardım, casusların nüfuzunu şahın sarayına yeritmək, katolikliyin yayılmasına kömək, bir sözlə, Səfəvi dövləti daxilində əsl "beşinci kolonna" formalaşdırılmasını tez anladılar. Bəs ermənilərin Qərb missiyalarından gözlədikləri nə ola bilərdi? Səfəvi dövlətində yaxşı iqtisadi imkanlara malik olan, o zamankı dünyanın nəhəng bazarlarında öz mövqelərinin möhkəmlənməsi üçün Avropada etibarlı himayədarlar axtaran erməniləri, puldan, imtiyazlardan, subsidiya, muzdsuz maliyyə yardımı, Qərbdə yeni əlverişli əlaqələr, partnyorlar və kreditorlardan başqa daha nə narahat edə bilərdi?

Erməni ruhanilərinin bu əməkdaşlıqdan öz gözləntiləri var idi, yeri gəlmişkən, həm də əsasən iqtisadi xarakterli. Eçmiədzin Romadan stabil maliyyə yardımı almağı, həmçinin yeni imtiyazlar əldə etmək və öz torpaqlarını genişləndirmək məqsədilə Qərb dövlətlərinin vasitəsilə özünə lazım olan anlarda Səfəvilərə təzyiqi təmin etməyə ümid bəsləyirdi. Necə deyərlər, şəxsi heç nə, yalnız biznes. Bu məsələlərdə Vatikandan yaxşı ermənilərə heç kim kömək edə bilməzdi.

Bu işin bütün xeyir-ziyanını ölçüb-biçən erməni ruhaniləri acgözlük və satqınlıqları səbəbindən belə əməkdaşlığa xeyirdua verib Qərb casusluğu şəbəkəsi üçün başlıca obyekt qismində çıxış etdilər. Bir sözlə, ələ alınmağa hazır olan kəslər - ermənilər ələ alındı.

Erməni mənbələrinin, eləcə də missioner ordenlərin fəaliyyəti ilə əlaqədar materialların tədqiqi birmənalı olaraq o faktı sübut edir ki, ermənilər bu qəbil əməkdaşlığa artıq XVI əsrin ikinci yarısından, Qərb diplomatik missiyaları Şah Təhmasibin sarayına intensiv olaraq gedib-gəlməyə başladıqları zamandan cəhd göstərirdilər. Avropa elçilərinin ürəyini oxuyan ermənilər öz nümayəndələrini onların yanına göndərirdilər. Əldə hansısa mənbə olmadığı halda bu danışıqların konkret predmeti barədə fikir söyləmək mürəkkəb məsələdir, lakin xeyli əminliklə ehtimal etmək olar ki, Eçmiədzin nümayəndələrinin Avropaya iki birinci gəlişi zamanı (1547 və 1562-ci illər) qarşılıqlı faydalı əməkdaşlıq məsələləri müzakirə olunmuşdur, baxmayaraq ki, erməni müəllifləri Vatikanı onların taleyinə biganəlikdə günahlandırmağı üstün tuturlar. Digər tərəfdən, bu vizitlər hansısa nəcib, yaxud mənəvi məqsəd daşısaydı, ermənilər bunu gizlətməzdilər.

Lakin elə erməni müəlliflərinin özləri bu vizitləri gizli adlandırır və Eçmiədzinin gələcək xarici siyasi fəaliyyət planlarına həsr olunmuş bir sıra müzakirələr nəticəsində buna qərar verdiklərini söyləyirlər. Sonrakı hadisələrin təhlili də göstərir ki, erməni tarixçilərinin iddialarına baxmayaraq, bu vizitlər nəticəsiz qalmamışdır. Vatikanda ermənilərin İran və Azərbaycanda katolik dünyasının maraqlarına xidmət göstərmək arzularını nəzərdə saxladılar və gələcək hərəkət planlarının tərtibi zamanı erməni adətlərini hesaba aldılar. Başqa cür olsaydı, karmelik nümayəndələri İrana gəldiklərində çətin ki, ilk növbədə Eçmiədzinlə və erməni tacirlərinin nüfuzlu nümayəndələrilə müvafiq təmaslar qurmaqla məşğul olardılar. Bu faktın etibarlığını müvəqqəti münasibətlərdə də izləmək mümkündür. Belə ki, karmelitlərin yazışmalarından öyrənirik ki, ilk geniş karmelit nümayəndəliyi şah sarayında uzun müddət qaldıqdan sonra İsfahana 1607-ci ildə təşrif gətirmişdir. Elə həmin ilin sonlarında Romaya ermənilərlə bağlı ilk hesabat göndərilir.

** Hörmətli oxucular, "Respublika" qəzetinin diqqətinizə təqdim etdiyi Akademik Ramiz Mehdiyevin "Qriqorian kilsəsi Səfəvi dövlətinə qarşı casusluq aləti kimi (XVII əsr və XVIII əsrin birinci rübü)" əsərinə ictimaiyyətin böyük marağını nəzərə alaraq kitabın bir fəslini dərc edirik. Bu dəyərli tarixi əsər bütövlükdə Azərbaycan dilində nəşr olunacaqdır.*

*Qəzetin yaxın nömrələrində tədqiqatçı-alim Əmralı İsmayılovun əsərin analitik təhlilinə həsr olunmuş geniş məqaləsini dərc edəcəyik. – Red.*

Ramiz MEHDİYEV

# Qriqorian kilsəsi Səfəvi dövlətinə qarşı casusluq aləti kimi

## (XVII əsr - XVIII əsrin birinci rübü)

### "Köhnə peşə ilə" təzə sifarişçinin xidmətində: ermənilər Səfəvi dövlətində Qərb casusluğunun əsas həlqəsidir

Vatikanın bilavasitə göstərişi dərhal ermənilərlə əlaqələrin qurulması və onların İranda vəziyyətlərinin müfəssəl öyrənilməsi olmuşdur: "Dinin təbliği Konqreqasiyası dəfələrlə karmelitlərə İranda xristian əhalinin əksəriyyətini təşkil edən ermənilər arasında missioner fəaliyyətinin vacibliyinə işarə etmişdi. Karmelitlər 1607-ci ildə İsfahana gələrkən dərhal rahib Simonla Romaya İranda ermənilərin vəziyyətindən bəhs edən məlumat göndərmişlər". Ermənilər hərəkətləri ilə özlərinin istənilən varlı və nüfuzlu sifarişçi üçün asan ələ gələn satqın və casus obrazını o dərəcədə təsdiq etmişdilər ki, ayrı-ayrı orden nümayəndələri arasında dəfələrlə yüngül qənimət kimi onlara malik olmaq haqqı üstündə mübahisə yaranırdı. Məsələn, məlumdur ki, karmelitlər və İspaniya kralının dəstəklədiyi avqustinlər arasında ermənilərlə bağlı çəkişmələr olmuşdu, belə ki, sonuncular özlərini "İran ermənilərinin yeganə qəyyumu" sayırdılar.

Karmelitlərin Vatikanla yazışması bizə katolik missiyasının ermənilərlə casusluq işinin bir neçə istiqamətini əks etdirir. İstiqamətlərdən birincisi və ən başlıcası yüksək erməni ruhaniliyinin, yəni Eçmiədzinin hakim dairələrinin ələ alınmasından ibarət idi, belə ki, Qriqorian kilsəsinin birliyini sarsıdan Vatikan bu strukturun manipulyasiyası üçün yaxşı imkan əldə edirdi. Romada hesab edirdilər ki, erməni ruhaniliyi gələcəkdə sərbəstliyini itirib Roma Papasının tabeliyinə düşməkdən ehtiyatlanaraq öz dindarları arasında katolikliyin yayılmasına müqavimət göstərəcək. Hadisələrin inkişafı öz növbəsində göstərdi ki, Romanın bütün narahatlığı əbəs yerə imiş; erməni ruhanilərinin pula hərisliyi atalarının dinindən - qriqorianlıqdan üstün oldu.

Bütün bunlar rüşvət və intriqa yoluyla Eçmiədzinin kilsədaxili proseslərinə birbaşa təsir etmək imkanına malik olmuş karmelitlərin işini xeyli yüngülləşdirdi. Ermənilərin satqınlığı hamıya o dərəcədə aydın oldu ki, o illərdə Azərbaycana və İrana gəlmiş məşhur Avropa səyyahları bu haqda öz yazılarında qeydlər etməyi lazım bildilər. "Katolikosların seçilməsi ətrafında gedən daimi intriqalarda iştirak edərək və Şardenin sözlərinə görə "erməni ruhaniliyinin də Şərqin digər dinlərinin ruhaniləri kimi öz yerlərini alıb-satdığından yararlanaraq karmelitlər onlara əl verən namizədlərin irəli sürülməsinə, yaxud onlar tərəfindən irəli sürülməmiş katolikosların katolikliyi qəbul etməsinə nail olurdular. Karmelitlər Redempt və Bartolomeyin təsiri altında katolikos Melkiset (1594-1629) katolikliyi qəbul etmiş və bunu camaat qarşısında bildirmişdir; Simon ata bəyan edir ki, bu katolikos bir çox yepiskop və keşişlə Romaya yollanmış, lakin Venesiya konsulu tərəfindən Hələbdə saxlanılmışdır. Ola bilsin ki, katolikos III Moisey (1629-1632-ci illər) məhz karmelitlər tərəfindən katolik edilmişdir. Onunla 1637-ci ildə 25 yepiskopun imzaladığı "itaət təşəkkürnaməsi"ni X İnnokendiyə göndərmiş Dimas Filipp Aqbekskiy dini mövzulara aid uzun-uzadı söhbətlər aparmışdır; bu katolikos karmelit yepiskopu Bernarla münasibət saxlayırdı". Rus tarixçisi, erməni kilsəsinin keçmişinin tədqiqatçısı A.Anninskinin sözlərinə görə müxtəlif xristian ordenlərinin təsiri altında katolikliyi qəbul etmiş erməni katolikoslarının siyahısı çox-çox geniş olub. Onun verdiyi məlumatlardan biz az vaxtda missionerlər tərəfindən uğurla ələ alınmış digər katolikosların adlarını öyrənirik, - IV İakov Culfinski (1655-1680), Yeleazar (1688-1691), Naqaped (1691-1705) və s.

Vatikan casusları erməni tacirləri arasında da eyni uğurla hərəkət edirdilər. Onları da Eçmiədzindən olan mənəvi rəhbərləri kimi yalnız maddi mənfəət və öz bizneslərini genişləndirmək perspektivi düşündürürdü: "Erməni tacirləri katolikliyi qəbul edərkən, yaxud latın rahiblərinin cəfakeş müdafiəçiləri reputasiyasına malik olarkən öz mənfəətlərini güdürdülər: karmelitlərdən müvafiq zəmanət alıb Avropada ticarət əlaqələrini möhkəmləndirirdilər; onlar Avropada əllərindən çıxmış xeyli pulu və başqa şeyləri karmelitlərin köməyilə qaytara biliblər. Karmelitlərin vasitəçiliyindən istifadə edərək tacirlər Avropadan daha böyük təminatla pul alırdılar.

İri erməni tüccarlığının xristian missionerlərlə sıx əməkdaşlıqda marağı o qədər böyük idi ki, o nəinki erməni icmasının düz ortasında, Yeni Culfada xüsusi karmelit missiyasının açılmasına razılıq verdi (1688-ci il), hətta onun saxlanması üçün bütün xərcləri öz üzərinə götürdü. "Karmelitlərin fəaliyyəti "xronika"da Şah Abbasın erməni əhalisini, viran qoyduğu Zaqafqaziya Culfasından köçürdüyü İsfahan kənarı - Yeni Culfada aydın təcəssüm edir. Karmelitlər erməni icmasının başçısına əcaib bir Avropa hədiyyəsi, eləcə də üç ermənin Venesiya qalerlərindən azad edilmələri üçün zəmanət məktubları təqdim edərək, orada missiyanın açılmasına icazəyə nail olmuşlar".

Culfadakı iqamətgah iri erməni tacirləri - Sarratların vəsaiti ilə mövcud idi. Rahiblərdən biri yazırdı ki, "Sarratlarda - onların dünyanın hər yerinə səpələnmiş agentlərinin əlində olan vardövlət var idi. Karmelitlər Sarratlardan illik 500 skudi subsidiya və Sarratlara məşhur səyyah Tavernye tərəfindən faizlər şəklində əmanət edilmiş xeyli məbləğ alırdılar. Bundan əlavə, karmelitlər 1684-cü ildən 1699-cu ilədək elə bu tacir soyadına məxsus ictimai hamamın gəlirinin bir hissəsindən faydalanırdılar. Beləliklə, Culfa missiyası kifayət qədər təmin olunmuşdu və Romanın maliyyə dəstəyinə ehtiyacı yox idi. Culfa karmelitləri Sarratların ev kilsəsində vəz edirdilər, həmçinin məktəb açmağa nail olmuşdular və burada erməni uşaqlarına katolik ruhda təhsil verirdilər".

Vatikan agenturası yetkin yaşlı insanların ələ alınması ilə kifayətlənmir, "ermənilərin gələcək nəslinə" də vəsait qoyurdu. Karmelitlərin və digər missioner ordenləri nümayəndələrinin səyi ilə Azərbaycanın və İranın iri şəhərlərində hər imkanda katolik təmayüllü dini məktəblər təsis edilirdi. Şirazda, İsfahanda, Təbrizdə, Bakıda, Gəncədə, Şamaxıda və s. yeni karmelitlərin, kaputsinlərin, yezuitlərin, dominikanların və digər katolik missiya nümayəndələrinin yerləşdiyi hər yerdə məktəblər fəaliyyət göstərirdi.

Erməni uşaqlarının katolik ruhda tərbiyə edilməsinə təkcə Vatikanda deyil, Avropanın siyasi dairələrində də xüsusi əhəmiyyət verirdilər. Həm Roma Papası, həm də Avropanın aparıcı monarxları anlayırlar ki, katolik ruhlu tərbiyə almış və Qərblə bilavasitə əlaqəsi olan ermənilər gələcəkdə sivilizasiyanın və ideoloji problemlərin deyil, yalnız gəlirlərinin dərdini çəkən erməni tüccarlığından daha etibarlı arxa olacaqlar. Buna görə onlar təhsil müəssisələrinin açılmasıyla əlaqədar bütün təşəbbüsləri aşkar və fəal surətdə dəstəkləyir, bunun üçün böyük məbləğlər ayırır, Səfəvi şahlarına xahiş məktubları yazırdılar və s. Bu işdə xüsusilə cidd-cəhd göstərən Qərb hökmdarlarından 1688-ci ildə bu cür məsələlərin həlli üçün Səfəvi şahına xüsusi nümayəndə heyəti göndərən qüdrətli Fransa kralı XIV Lüdoviki fərqləndirmək olar.




Həmin missiyanın vəzifələrinə toxunan S.Aşurbəyli yazır: "Katolikliyin Naxçıvan və Şirvan vilayətlərində yayılmasında Fransa kralı XIV Lüdovik böyük rol oynamışdır. Naxçıvanın erməni katoliklərinin himayədar və arxa olmaq xahişinə cavab olaraq XIV Lüdovik erməni uşaqları üçün İsfahanda və Təbrizdə kapustin məktəbləri, Şamaxı və İrəvanda yezuit kilsə və məktəbləri açılması haqda xahiş məktubunu yepiskop Padu de Sent-Olonla 1688-ci ildə şaha göndərdi". Oxşar məktubla papa XI Kliment də Səfəvi şahı Hüseynə (1694-1722) müraciət etmişdir. Vatikan eyni zamanda bu istiqamətdə daha praktik addımlar da atırdı: "Yerli əhalidən köməkçilərin hazırlanması məqsədilə karmelitlər artıq XVI əsrin əvvəllərində Romada erməni gənclərinin öyrədilməsi üçün xüsusi seminariyalar açmağa nail olurdular".

Katolik missionerlər kütlələrə psixoloji təsir üsullarına yaxşı bələd idilər və öz dövrlərinin gözəl imicmekerləri idilər. Erməni ruhaniliyi və tüccarlığı ilə aparılan işlə məhdudlaşmayaraq, onlar dəstək qazanmaq üçün sadə xalqı da unutmurdular. Bunun üçün missionerlər pullarını əsirgəmir və bəzən erməni təbəqələri arasında pozitiv obraz formalaşdırmağa hesablanmış səs-küylü xeyriyyəçilik aksiyaları keçirirdilər. Misal üçün 12 erməni gəncini o zaman üçün yaxşı pula - 150 skudiyə əsirlikdən qurtarıb, onlara azadlıq vermişdilər. Bu missiyanın həkimləri tərəfindən yoxsullara, xüsusən müxtəlif epidemiyalar yayılan zaman həmişə pulsuz tibbi yardım göstərilirdi. Katoliklər eyni zamanda, həmçinin ənənəvi kilsə ibadəti bitən vaxtlarda katolik monastırı ətrafında toplaşmış yerli yoxsul xristianlara daim sədəqə paylayırdılar.

Məsələn, karmelitlər tərəfindən Yeni Culfada yerli erməni fəqir-füqarasına sədəqə paylanması prosesi belə təsvir edilir: "Kilsəni tərk edərkən, katoliklər, həmişəki kimi, çox sayda toplaşmış və kilsənin ətrafında ibadətin sonunu gözləyən yoxsullara sədəqə paylayırlar. İbadət bitdikdən sonra şagirdlərimizdən biri və ya ikisi onları bir araya toplayır. Qum saatı qoyulur və rahiblər bir saat ərzində toplaşanlara kataxezis vəz edirlər... Bundan sonra onlar yenə sədəqə paylayırlar".

Əzmkar iş sayəsində, məbədlərin və əsasən ermənilərdən ibarət yerli xristianlar üçün dini məktəblərin tikililərində daldalanaraq karmelitlər yaşadıqları hər yerdə öz yuvalarını yaratmağa nail olublar: "1615-ci ildə Tatda, 1623-cü ildə Şiraz və Bəsrədə, 1679-cu ildə Yeni Culfada, 1688-ci ildə Bəndər-Abbasda, 1712-ci ildə Həmədanda, 1731-ci ildə Bağdadda iqamətgah yaradılmışdır".

Missionerin ermənilər arasında fəaliyyətinin nəticələri də maraqlıdır: "Emmanuil ata karmelitlərin Həmədan erməniləri arasında uğurlu fəaliyyətindən yazır, özü də qeyd edir ki, onlar İran ermənilərinin ən tərsi idilər.

...Culfada 15-20 min erməni var və onların üçdə birindən çoxu katolikləşdirilib, — yazırdı 1742-ci ildə karmelit Emmanuil".

Emissarlar tərəfindən ələ alınmış və saraya gir-çıxı olan ermənilər bir çox hallarda sifarişçilərini şahların fikir və planlarından xəbərdar edirdilər. Nəticədə iş dəfələrlə vaxtından qabaq missionerlərin müxtəlif üsulları ilə — nüfuzlu məmurlara rüşvət verməklə, şantajla, daxildən siyasi təzyiqlə, Vatikanın və Avropa monarxlarının xahişi və zaminliyi ilə — pozulurdu. Məsələn, qabaqcadan ermənilərdən alınmış informasiya sayəsində karmelitlər böyük səy göstərərək ermənilərin islamı qəbul etmələri ilə bağlı müsəlman ruhanilərin çağırış aksiyasını pozublar. Gizli yazışmalardan aydın olur ki, həmin təşəbbüs böyük Şah Abbasın özündən gəlirmiş və elə öz yaxın ətrafı, Qərb agenturası ermənilərin köməyilə onlara yol tapdıqdan sonra, şahı fikrindən daşındıra bilib: "1624-cü ildə İsfahan karmelitləri Abbasın türklərdən Bağdadı aldıqdan sonra şəhərin kənarlarında yerləşən qırx üç kəndin ermənilərini zorla müsəlmanlaşdırmaq planının qarşısını alıblar; karmelitlər bu əmri icra etməli olan şah yaxınını ələ almağı bacarıblar".

Burada "ermənilərin zorla döndərilməsi" söz birləşməsinə bir qədər aydınlıq gətirilməlidir. Məlumdur ki, şəriətə görə islamı qəbul etmiş qeyri-müsəlman müsəlman ümmətinin üzvü olur və o, ümmətin digər üzvlərinin yararlandığı haqq və azadlıqlardan istifadə etməyə başlayır.

Deyildiyi kimi, Səfəvi dövləti şəriət normalarıyla idarə olunurdu, ona görə islamı qəbul etmiş ermənilərin, gürcülər və digər qeyri-müsəlman xalqlarının nümayəndələri qarşısında geniş perspektivlər açılırdı. Məsələn, məlumdur ki, Şah Abbasın şəxsi qvardiyasında sonradan islam dinini qəbul etmiş xristian ailələrinin uşaqları xüsusi yer tuturdu. İslamı qəbul etmək ermənilərə əmlak məsələlərində də əlverişli idi. Səfəvi qanunvericiliyinə görə müsəlmanlığı qəbul edən erməni dördüncü arxa-dönəminəcən bütün qohumlarının əmlakının varisi ola bilərdi.

Ona görə bir çox erməni islamı qəbul edərək özünü əlavə vergilərdən və karyerasındakı maneələrdən qurtarırdı. Gürcülər arasında da buna üstünlük vermə müşahidə olunurdu: "Yüz illər boyu İran hökmdarlarının əlinə keçmiş minlərlə gürcü qul edilir, şahın qulu olurdular, müsəlmanlığı qəbul etdikdə isə tək-tək şəxslər İran hökmdarlarının sarayında kifayət qədər yüksək inzibati vəzifələrə nail ola bilirdilər. Daxili çəkişmələrdə sıxışdırılan bəzi gürcü feodalları özləri İrana qaçır və burda məskən salırdılar. Bu feodallar və onların varisləri müsəlman olduqda belə Gürcüstanla əlaqələrini saxlamağa çalışırdılar. Onların bir çoxu adlı-sanlı gürcü ailələri ilə qohum idi. Daud-xan Undiladze İran hökmdarına qarşı üsyan qaldırmış Georgiy Savkadze və çar Teymurazla əlaqədə idi ki, bu da üsyan yatırıldıqdan sonra I Şah Abbasın nəvəsi I Şah Səfi tərəfindən Undiladzenin evinin darmadağın edilməsinə gətirib çıxardı. Gürcülər İranın özündə çarlıq edən, feodal ailələri ilə qohumluq əlaqələrində idilər. İran şahlarının və böyük hökmdarlarının hərəmxanalarında mütləq gürcü qadınları olurdu.

...XVII-XVIII əsrlərdə İranın Allahverdi xan, İmanqulu xan, Daud xan, Səfiqulu xan kimi elə xadimləri olub ki, onlar gürcü feodalları Undiladzadenin ailəsinə məxsus olublar. Onlar Fars, Lar, Qarabağın bəylərbəyi (əyalət hökmdarı), qullar ağası (şah sarayında qullar rəisi), daruqi (şəhər sisteminin rəisi) və digər vəzifələr daşıyırdılar. Məsələn, bütöv bir yüzillik ərzində (1618-dən 1722-ci illərədək) İsfahanın daruqi vəzifəsini həmçinin islamı qəbul etmiş gürcü çar sülaləsi Baqrationilərin nümayəndələri icra ediblər. Qullar ağası, yaxud qullar başının sərəncamında uşaqlıqda əsir götürülüb şah həzrətlərinin yanında hərbi xidmət etməsi üçün hazırlanmış, gürcü, çərkəz, erməni və başqa xalqların nümayəndələrindən ibarət qvardiya var idi. I Şah Abbas qızılbaş dəstələrinə qarşı xüsusi cangüdən qullar dəstəsi formalaşdırmışdır".

Mənbələr eləcə də ermənilərin və katolik missionerlərinin, guya öz vergi siyasətilə ermənilərin hüquqlarını məhdudlaşdıran, erməni bölgələrinin idarə olunmasına məsul şah canişini Məsud bəyin kənarlaşdırılmasına yönəlik birgə hərəkətlərindən xəbər verir:

"Ermənilər karmelitlərə onlara qahmar çıxmaları haqda xahişlə müraciət etdilər və Redempt ata 1613-cü ilin iyulunda Təbrizə yollandı, şah o vaxt orada idi. Redempt ata ondan vergilərin azaldılmasını, yada qubernatorun əvəz edilməsini istəyib. Abbas qubernatorun dəyişdirilməsi barədə fərman verib". Missionerlərin və ermənilərin şahın qərarından məmnunluğu onu göstərir ki, intriqada əsas məqsəd ermənilərə və katolik agenturaya əl verməyən canişinin kənarlaşdırılması olub.

Şah Abbasla karmelit ordeni nümayəndələri arasında sonuncuların şah sarayının yüksək rütbəli məmurlarını, nüfuzlu şəxslərini ardıcıl olaraq ələ almaq cəhdləri üstündə qızışan münaqişədən sonra ermənilərin "xidmətləri" xüsusi əhəmiyyət kəsb etdi və əvəzolunmaz oldu. Məlum olduğu kimi, missionerlərin bu üzlülüyündən və utanmazlığından qəzəblənən şah onlara və onlarla əlbir olanlara qarşı ən ciddi ölçü götürülməsi əmri vermişdi. Onlar tərəfindən ələ alınan və xristianlığı qəbul etmiş məmurlar edam edilmişdi: "Saraya buraxılmış rahiblər əyan-əşrəf arasında moizə etməyə çalışırdılar; fəlsəfədə, ilahiyyatda, tarixdə və poeziyada geniş biliyə malik olan karmelitlər maraqlı həmsöhbət idilər; onlar doqmatik məsələlər üzrə açıq diskussiyalara girərək əyanları xristian olmağa meyilləndirməyə cəhd göstərirdilər.

Şah Abbas karmelitlərlə, onlar katolik etdikləri beş müsəlmanı portuqal rəsmilərinin müdafiəsi altında öz yeni dinlərinə azad şəkildə etiqad etmələri üçün Hörmüzə 1622-ci ildə göndərdikdə, Avropa dövlətlərilə münasibətləri kəskinləşdirmək istəmədiyindən iltifatla davranırdı. Dönüklər şah məmurları tərəfindən tutulmuş və zülmlə edam edilmişdilər.

Karmelitlər 9 aylığa İsfahandan qovuldular, qayıtdıqlarında isə düz Abbasın ölümünədək saraya buraxılmadılar". Bu hadisələrdən sonra saraya birbaşa daxil olmaqdan məhrum edilmiş karmelitlərin onlarla saray elitasıyla yaxşı əlaqələri olan öz erməni casusları vasitəsilə təmas saxladıqlarını söyləmək artıqdır.

Ermənilərlə sıx əlaqədə olan missionerlər, eləcə də Qərb rezidentura nümayəndələri onlara təkcə çoxsaylı problemlərinin həllində yardım etmir, həm də erməni davranışlarının xüsusiyyətlərini müfəssəl öyrənirdilər. Bu xalqın xarakterinə tez bələd olan və onun sürüşkən mənəviyyatını nəzərə alan Qərb agenturası Səfəvilərə qarşı ermənilərlə sıx əməkdaşlığa baxmayaraq, heç vaxt onlara inanmır və onları itaətdə saxlamaq üçün daim mexanizmlər hazırlayırdı. Buna Vatikan emissarlarının kifayət qədər ciddi səbəbləri var idi, belə ki, erməni ruhaniliyinin katoliklərə ikili oyun oynadığı dəfələrlə üzə çıxmışdı. Müəyyən maddi vəsait almaq üçün zahirən özlərini katolik kimi göstərir, əl altından isə qriqorianlığı saxlamaq xətrinə sadə camaatı missionerlərin üstünə qaldırırdılar. Bundan əlavə, erməni ruhaniliyi gizlində Səfəvi məmurlarını cidd-cəhdlə missionerlərə qarşı çıxarır, onları şahın qatı düşməni kimi qələmə verirdilər. Məqsəd adi idi — bir tərəfdən özünəxaslığı saxlamaq və Vatikana Qriqorian kilsəsini tabe etməyə imkan verməmək, digər tərəfdən, — özünü islamın lap mərkəzində xristianlığın qeyrətli mübarizləri kimi göstərmək.

Papaya ünvanlanmış təcili məlumatında Səfəvilərin ərazisində fəaliyyət göstərən katolik ordenlərin nümayəndələrindən Moris Sent-Terez adlı birisi ermənilərin ikiüzlüyündən və abırsızlığından çox emosional şəkildə danışır: "Bütün bunlar, müqəddəs ata, missionerlərin və katoliklərin erməni patriarxı tərəfindən daim təqib edildikləri üzündən baş verir ki, onların İrana daxil olmalarına əngəl törənsin; o vəzifəli türk və fars şəxslərini şirnikləndirməkdən utanmır, odur ki, bu sonuncular ziyan vurur və hətta missionerləri çubuqla döyürlər, necə ki, məsələn, bir neçə ay bundan qabaq bu, Tiflisdə və Gəncədə kaputsin paterləri və Şamaxıda yezuit paterlərin başına gəlib... Müqəddəs ata, İtaliyaya, xüsusən Romaya gələn bütün ermənilər siz zati-müqəddəslərini və kardinalları aldadırlar; orada onlar özlərini katolik kimi qələmə verirlər, burada isə missionerlərin və əsl katoliklərin ən böyük təqibçiləri olurlar".

9 iyul 1655-ci il tarixli, oxşar məzmunlu daha bir sənəd var ki, orada karmelit Baltazar ata erməni ruhaniliyinin daimi təhdidi və sıxışdırılmalarında Vatikana şikayət edir: "Onlar (ermənilər) bizi təhdid etməkdən əl çəkmir və əhaliyə uşaqlarını sizin yanınıza göndərməyə imkan vermirlər".

Belə münasibətə cavab olaraq, Vatikanın tapşırığı ilə həm Şərqdə, həm də Avropa ölkələrində qazanclı ticarət edən və Avropa kreditorlarından xeyli asılı olan erməni tüccarlığı nümayəndələrinə kütləvi təzyiq başladı. Vatikanın seçdiyi strategiya ermənilərinin acgöz xilsətinə hesablanmışdı. Romada gözəl anlayırdılar ki, böyük gəlirdən və satış bazarlarından məhrum olan, həmçinin Avropa kreditorları və ticarət agentlərilə əlaqəni itirən erməni oliqarxiyası Eçmiədzin katolikosu və yepiskoplarıyla bağlı kifayət qədər aqressiv mövqe tutacaq, sərt təzyiq göstərəcək və nəticədə onlar geri çəkilməyə məcbur olacaqlar. Əks təqdirdə Eçmiədzin öz əsas sponsorlarından birinin itirilməsilə barışmalı olardı.

Erməni tüccarlığı ilə bağlı görülmüş tədbirlər həddindən artıq sərt olmuşdu. Katolikliyə müqavimət göstərən hər kəs başına bəla açırdı: "Karmelitlər daha sərt təsir üsullarından da çəkinmirdilər: onlar Avropa hökmdarlarına müraciətlərində istəyirdilər ki, əraziləri hüdudlarında olan ermənilər cərimələr yoluyla, öz Culfa soydaşlarına katolik olmaları, həmçinin qriqorian keşişlərinə katoliklərin təqibini dayandırmaları üçün təzyiq göstərməyə məcbur edilsin. Karmelitlər, eləcə də, yatırımlarının Avropa banklarına müsadirəsi, əmlaklarının alınması və gəmilərinə embarqo qoyulması təhdidi ilə, katolikə çevrilməmiş ermənilərə Papa dövlətinə daxil olmağa qadağa tələb edirdilər. Görünür, bu xahişlər cavabsız qalmırdı. "Xronikada" məsələn, Venesiya nunsisinin 1708-ci ildə Romaya məktubunda onların erməni tacirlərinə təzyiqinin yenidən başladığı bildirilir.

Lakin katolik missionerlərilə erməni icması arasında baş verən vaxtaşırı münaqişə və ixtilaflara baxmayaraq, sonuncular Azərbaycan və İran ərazilərində Vatikan üçün əsas informasiya mənbəyi, təsir etmə və yayılma aləti olmağa davam edirdilər. Səfəvi dövləti XVII əsrin sonlarından etibarən sürətlə tənəzzülə doğru gedərkən, ermənilər katolik dünya və Qərb monarxlarıyla sıx əlaqədə olmaqda maraqlı idilər. Qeyd olunan faktlar bunun ən yaxşı sübutudur. Bunlar birmənalı olaraq onu göstərir ki, Qriqorian kilsəsinin azərbaycanlılara və türklərə qarşı düşmən və xain siyasəti öz kökləri ilə uzaq keçmişə gedir və bu nifrətin bir çox səhifəsi Azərbaycan və Türkiyə torpaqlarında "böyük Ermənistan" yaratmaq istəyilə əlaqədardır. Başqa səbəblər mövcud deyil. Erməni xalqının bütün müsibətləri onun siyasi elitasının Qriqorian kilsəsinin başçılığı altında satqınlığından gəlir.

**Ruscadan tərcümə Ülfət KÜRÇAYLININDIR.**

# Əlahiddə Çevik Polis Alayında əməliyyat müşavirəsi keçirilib





**Yanvarın 15-də Əlahiddə Çevik Polis Alayında 2018-ci il ərzində görülmüş işlərin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən daxili işlər naziri, general-polkovnik Ramil Usubov əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf və tərəqqi strategiyasının Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə böyük əzmlə davam etdirildiyini, ölkəmizdə mövcud olan sabitlik və təhlükəsizlik şəraitinin daha da möhkəmləndiyini, ictimai asayişin ötən ildə də etibarlı qorunduğunu vurğulayıb, görülən işlərdə, əldə edilən müsbət nəticələrdə Əlahiddə Çevik Polis Alayının şəxsi heyətinin də böyük əməyi olduğunu diqqətə çatdırıb.

Sonra Alay komandirinin birinci müavini - Qərargah rəisi, polis polkovniki Elnur Kərimov hesabat dövründə görülmüş işlər və qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış edib. O qeyd edib ki, ötən il nazirliyin aidiyyəti struktur qurumları və ərazi polis orqanları ilə qarşılıqlı əlaqədə Alayın patrul bölüklərinin xidmət apardığı ərazilərdə kriminogen durum bütövlükdə nəzarətdə saxlanılıb, cinayətlərin və digər hüquqpozmaların aşkarlanması və qarşısının alınması üçün paytaxtın polis orqanları ilə birgə zəruri tədbirlər görülüb. Nəticədə post və marşrutlarda 32 min 81 nəfər, o cümlədən müxtəlif cinayətlər törətmiş 834, inzibati xətalara yol vermiş 31 min 247 şəxs saxlanılaraq barələrində qanunauyğun ölçülərin götürülməsi təmin edilib. Hüquqazidd əməllərə yol verdiklərinə görə saxlanılanlardan 214-ü xuliqanlıq, 247-si oğurluq, 15-i soyğunçuluq, 52-i dələduzluq, 44-ü digər cinayətlər törətmiş şəxslər olub. Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində Alayın şəxsi heyəti tərəfindən ümumilikdə 133 nəfər saxlanılıb. Bununla bərabər, xırda xuliqanlığa görə 1298, avaralıq və dilənçiliyə görə 3199, polisin qanuni tələbinə tabe olmadığına görə 668, qanunsuz küçə ticarəti ilə məşğul olduğuna görə 4925, məişət səs-küyünə yol verən 888 nəfər müəyyən edilərək barələrində zəruri tədbirlər görülüb. Bütövlükdə, 2017-ci illə müqayisədə aşkarlanan cinayətlərin sayı 1,5, inzibati xətaların sayı isə 21,3 faiz çox olub.

Məruzə ətrafında çıxış edənlər görülən işlərin nəticələrindən, xidməti fəaliyyətdə yol verilən nöqsan və çatışmazlıqlardan, onların qısa müddətdə aradan qaldırılması istiqamətində həyata keçiriləcək tədbirlərdən danışıblar.

Müşavirəyə yekun vuran general-polkovnik Ramil Usubov şəxsi heyətin ötənilki fəaliyyətinin yekunlarını yüksək qiymətləndirib, bu dövrdə xidməti-döyüş fəaliyyətində əldə olunmuş müsbət nəticələrin qorunub saxlanılmasının əhəmiyyətini qeyd edib, tapşırıq və tövsiyələrini verib. Kütləvi tədbirlər zamanı təhlükəsizliyin təmin edilməsində Alayın böyük təcrübə qazandığını deyən nazir cari ildə Formula 1 Azərbaycan Qran-Prisi, futbol üzrə UEFA Avropa Liqasının final görüşü, Avropa Gənclər Olimpiya Festivalı kimi beynəlxalq əhəmiyyətli idman tədbirlərinin keçiriləcəyi ilə əlaqədar qarşıya qoyulan vəzifələrin yüksək səviyyədə icra edilməsinin, qüvvə və vasitələrin tədbirlər ərəfəsində tam hazırlıq vəziyyətinə gətirilməsinin, həmçinin peşəkarlığın artırılması məqsədilə müvafiq təlim-məşqlərin keçirilməsinin əhəmiyyətini qeyd edib.

Xidməti vəzifələrin uğurla yerinə yetirilməsi üçün ölkə rəhbərliyi tərəfindən hər cür şəraitin yaradıldığını, şəxsi heyətin hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğunu nəzərə çatdıran daxili işlər naziri Azərbaycan Prezidenti İlham Əliyevi əmin edib ki, Əlahiddə Çevik Polis Alayı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmini, cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması üzrə vəzifələri, qarşıya qoyulan bütün tapşırıqları bundan sonra da əzmlə yerinə yetirəcək, göstərilən etimadı sədaqətli xidməti ilə doğruldacaq.

Müşavirənin sonunda ötən il xidməti vəzifələrin icrasında fərqlənmiş bir qrup əməkdaşın təltif olunması barədə daxili işlər nazirinin müvafiq əmrləri elan olunub və general-polkovnik Ramil Usubov mükafatları sahiblərinə təqdim edib.

**AZƏRTAC**

# Dubayda Azərbaycan Ticarət Evi açılıb

**Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, ölkəmizdə istehsal olunan məhsulların ixracının təşviqi və genişləndirilməsi, "Made in Azerbaijan" brendinin xarici ölkələrdə tanıdılması, satışının təşkili və əlaqələndirilməsi məqsədilə xarici ölkələrdə ticarət evlərinin yaradılması prosesi davam etdirilir.**

AZƏRTAC xəbər verir ki, yanvarın 15-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhərində yerləşən məşhur "The Mall" Ticarət Mərkəzində Azərbaycan Ticarət Evi açılıb. İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış Azərbaycan Ticarət Evi "Made in Azerbaijan" brendinin BƏƏ bazarında daha çox tanıdılmasına, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsinə dəstək göstərəcək, yerli məhsullarımızın bu ölkədə satışını təşkil edəcək, sahibkarlar arasında bu sahədə əlaqələndirməni həyata keçirəcək.

Ticarət Evində Azərbaycan şirkətlərinin müxtəlif növ məhsullarının sərgisi təşkil olunub. Daimi fəaliyyət göstərəcək sərgidə 33 Azərbaycan şirkətinin istehsal etdiyi 600-dən çox məhsul, o cümlədən meyvə və tərəvəzlər, quru meyvələr, fındıq, çay, mürəbbə, meyvə şirələri, mineral sular, limonadlar, konserv məhsulları, bitki yağları, süd və süd məhsulları, qənnadı məmulatları, kosmetik məhsullar və sair nümayiş etdirilir. Ticarət Evində Azərbaycanın zəngin mətbəxini təqdim edən restoran da fəaliyyət göstərir.

Azərbaycan Ticarət Evinin fəaliyyətə başlaması ilə əlaqədar keçirilən tədbirdə iqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti, BƏƏ-nin rəsmi şəxsləri və iş adamları iştirak edib.

Ş.Mustafayev BƏƏ-də Azərbaycan Ticarət Evinin açılmasının dövlət başçılarının ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafına verdikləri böyük önəmin, Birləşmiş Ərəb Əmirliklərində Azərbaycan məhsullarına olan marağın göstəricisi olduğunu vurğulayıb. Bildirib ki, qarşılıqlı hörmət və dostluq prinsiplərinə əsaslanan Azərbaycan-BƏƏ əlaqələri uğurla inkişaf edir.



Nazir qeyd edib ki, Azərbaycanın xarici ölkələr üzrə ilk ticarət nümayəndələrindən biri də məhz Birləşmiş Ərəb Əmirliklərinə təyin edilib, 2017-ci və 2018-ci illərdə Dubay, Əbu-Dabi və Şarca şəhərlərinə ixrac missiyaları təşkil olunub: "Hazırda Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, nəqliyyat, xidmət sahələrində 290 BƏƏ şirkəti fəaliyyət göstərir. İndiyədək Azərbaycanla BƏƏ arasında müxtəlif sahələrdə əməkdaşlığa dair 30-dan çox sənəd imzalanıb".

Azərbaycan və BƏƏ arasında ticarət əlaqələrinin inkişafını vurğulayan Ş.Mustafayev deyib ki, ötən ilin 11 ayında 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə ölkələrimiz arasında ticarət dövriyyəsi 51 faiz, ixrac 31 faiz artıb. Ölkələrimiz investisiya qoyuluşu sahəsində də uğurlu əməkdaşlıq edir. İndiyədək BƏƏ Azərbaycana 2,1 milyard dollar, Azərbaycan isə BƏƏ-yə 330 milyon dollar investisiya yatırıb.

Nazir diqqətə çatdırıb ki, "ASAN Viza" sisteminin tətbiqi Azərbaycana turist səfərlərinin təşkilini asanlaşdırıb. 2018-ci ilin yanvar-noyabr aylarında BƏƏ-dən Azərbaycana gələn turistlərin sayı 2017-ci ilin ötən dövrü ilə müqayisədə 13 faiz artıb. Ötən il Azərbaycan Turizm Bürosunun Birləşmiş Ərəb Əmirliklərində xarici turizm nümayəndəliyi açılıb: "Dubayda Azərbaycan Ticarət Evinin açılması iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafına, işgüzar dairələr arasında əlaqələrin genişləndirilməsinə öz töhfəsini verəcək".

Birləşmiş Ərəb Əmirliklərinin iqtisadiyyat naziri Sultan Bin Saeed Al Mansoori Dubayda Azərbaycan Ticarət Evinin fəaliyyətə başlamasının ikitərəfli iqtisadi əlaqələrin inkişafında mühüm addım olduğunu, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın və işgüzar münasibətlərin inkişafında əhəmiyyətini vurğulayıb, qarşılıqlı iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətlərinə dair fikirlərini bölüşüb.

Sonra tədbir iştirakçıları Azərbaycan Ticarət Evi və burada daimi fəaliyyət göstərən Azərbaycan məhsullarının sərgisi ilə tanış olublar.

BƏƏ-də açılan "Azərbaycan Ticarət Evı" ölkəmizin xaricdə yaradılmış sayca 7-ci ticarət evidir.

Həmçinin Birləşmiş Ərəb Əmirliklərində Azərbaycanın Ticarət Nümayəndəliyinin ofisi açılıb. İqtisadiyyat naziri Ş.Mustafayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti və BƏƏ rəsmiləri Ticarət Nümayəndəliyinin ofisi ilə tanış olublar.

**AZƏRTAC**




*Şahin Mustafayev:*

# Azərbaycan dünya ticarətində öz yerini tutmaq üçün çox fəal mövqedədir



**Dubayda fəaliyyətə başlayan Azərbaycan Ticarət Evi ölkəmizin xarici dövlətlərdə açdığı yeddinci ticarət evidir. Həmin ticarət evinin açılması Prezident İlham Əliyevin qeyri-neft məhsullarının ixracının artırılması və məhsulların yeni bazarlara çıxarılmasının təmin edilməsi istiqamətində tapşırıqlarının icrası, eləcə də sahibkarlığa növbəti dəstək kimi qiymətləndirilməlidir. Bu şərait məhz Azərbaycan sahibkarlarının keyfiyyətli və beynəlxalq standartlara uyğun məhsullarını xarici bazarlara çıxarması üçün yaradılır.**

Bu barədə AZƏRTAC-a müsahibəsində iqtisadiyyat naziri Şahin Mustafayev deyib.

Nazir qeyd edib ki, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında əlaqələr uğurla inkişaf edir və ticarət evinin açılması ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətləri, eləcə də iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsində marağın göstəricisi kimi də dəyərləndirilməlidir. Ticarət evinin fəaliyyətə başlaması bu əlaqələrin daha da genişlənməsinə öz töhfəsini verəcək.

Azərbaycan və BƏƏ-nin əməkdaşlığının hazırkı səviyyəsinə toxunan Ş.Mustafayev bildirib ki, ikitərəfli əlaqələrin uğurlu inkişafı məhz dövlət başçılarının siyasi iradəsinin nəticəsidir: "Dövlət başçıları arasında dostluq, qardaşlıq münasibətləri var və buna söykənən əlaqələr bütün sahələrdə inkişaf edir. Sözsüz ki, ilk növbədə, siyasi əlaqələri qeyd etmək lazımdır - ölkələrimiz bir-birini beynəlxalq çərçivədə də dəstəkləyir, ikitərəfli müstəvidə əməkdaşlıq isə yüksək səviyyədədir".

Nazir vurğulayıb ki, iqtisadi sahəyə gəlincə, qarşılıqlı sərmayələrin həcmi ilbəil artır. BƏƏ-nin Azərbaycanda 290 şirkəti qeydiyyatdan keçib: "İndiyədək Birləşmiş Ərəb Əmirlikləri Azərbaycana 2,1 milyard dollar, ölkəmiz isə BƏƏ-yə 330 milyon dollar həcmində investisiya yatırıb. Eyni zamanda, Azərbaycan şirkətləri də Birləşmiş Ərəb Əmirliklərində fəaliyyət göstərir. Ötən ilin 11 ayında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ticarət dövriyyəsi 51 faiz artıb. Bu göstəricilər çox uğurludur. Hesab edirik ki, əməkdaşlıq üçün potensial daha genişdir və bu potensialdan yararlanmaqla daha böyük uğurlar əldə etmək olar. Bir çox sahələrdə, eləcə də turizm sahəsində potensial böyükdür. Qarşılıqlı əməkdaşlıq, birgə şirkətlərin yaradılması ilə bu potensialdan daha səmərəli istifadə etməklə daha böyük uğurlar qazana bilərik. Keçirilən görüşlərdə də bu barədə müzakirələr apardıq".

Ş.Mustafayev bildirib ki, bu ilin ortalarında Bakıda hökumətlərarası komissiyanın növbəti iclası keçiriləcək. Bu iclas çərçivəsində BƏƏ şirkətləri və rəsmiləri Azərbaycan layihələri ilə yerində tanış olacaq və yeni əməkdaşlıq istiqamətləri müəyyən ediləcək.

"Dubayda açılan Azərbaycan Ticarət Evi Körfəz ölkələrinə də çıxış yolu rolunu oynayacaq. Bu baxımdan, həmin layihə maraqlıdır. Bazar araşdırmaları aparılır, ilkin təcrübəni təhlil edəcəyik və gələcəkdə belə ticarət evləri açılacaq. Məhsullarımız keyfiyyətlidir, dadlıdır, çox yüksək səviyyədədir. Dövlət başçısının tapşırıqları çox aydındır. Azərbaycan dünya ticarətində öz yerini tutmalıdır. Bazar araşdırmaları nəticəsində hansı bazarda bizim məhsullara tələbat var, bu bazarlara çıxmaq üçün sahibkarlara hər cür dəstək göstərilir. İnanırıq ki, Dubaydakı Azərbaycan Ticarət Evində də təqdim edilən məhsullar istehlakçılar tərəfindən bəyəniləcək və burada böyük maraq görəcəyik".

Nazir deyib ki, Azərbaycan "Dubay EXPO2020" beynəlxalq sərgisində fəal iştirak edəcək: "Hazırlıq işlərinə keçən il başlanılıb və bu il də davam etdiriləcək ki, ölkəmiz bu sərgidə layiqincə təmsil olunsun".

Bu günlərdə BƏƏ-də keçirilən Enerji Forumunda iştirak barədə sualı da cavablandıran Ş.Mustafayev bildirib ki, alternativ və bərpaolunan enerjidən istifadə Azərbaycanda da prioritet hesab olunur: "Dövlət başçısı bu istiqamətdə mühüm tədbirlər görüb, lazımi sərmayələr ayrılıb və işlər davam edir. Əlbəttə, beynəlxalq əməkdaşlıq çərçivəsində bu işlərin davam etdirilməsi ölkəyə daha çox uğurlar gətirə bilər və gətirməlidir. Azərbaycan Prezidentinin tapşırığı ilə bizim nümayəndə heyəti tədbirdə iştirak edirdi və bu, ev sahibləri tərəfindən yüksək qiymətləndirildi. Hesab edirəm ki, Birləşmiş Ərəb Əmirliklərinin bu sahədə zəngin təcrübəsi bizim şirkətlər üçün də faydalı olacaq".

**AZƏRTAC**

# Heç bir ölkədə son on beş il ərzində iqtisadiyyat Azərbaycandakı qədər artmamışdır

## *Dövlət başçısı deyib: "Mənim bir amalım var: güclü Azərbaycan dövləti qurmaq və xalqa ləyaqətlə xidmət etmək"*

**Daha bir yüksəliş ili tarixə döndü. Əldə olunan əsas sosial-iqtisadi göstəricilər təsdiq etdi ki, Azərbaycan bütün sahələrdə müvəffəqiyyətlə inkişaf edir. Bu dinamik irəliləyiş müxtəlif sahələrə dair siyasi və iqtisadi islahatların həyata keçirilməsinin nəticəsidir. Vurğulamaq lazımdır ki, dünyada baş verən siyasi, iqtisadi və sosial böhran, təhdid və risklər fonunda ölkəmizin innovativ inkişaf prosesi çox sürətlə gedir. Müasir dünyamız elmi-texniki inqilablar dövrüdür. İnnovativ tərəqqi olmadan heç bir dövlət irəli gedə bilməz, buna görə də müxtəlif sahələri əhatə edən beynəlxalq əməkdaşlıq dövlətlərin inkişafında həyati əhəmiyyət kəsb edir. Hazırda Azərbaycan üç süni peyki ilə azsaylı kosmik kluba daxil olan ölkələrdən biridir. Dövlət rəhbərliyi sosial-iqtisadi inkişafın dinamizmini mühafizə etmək və ilbəil yeni mərhələyə qalxmaq üçün müvafiq islahatların vaxtında həyata keçirilməsini xüsusi düqqət mərkəzində saxlayır. Bu da öz müsbət nəticəsini verir.**

2018-ci ildə də regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramında nəzərdə tutulmuş vəzifələr müvəffəqiyyətlə icra olunmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində dünyada gedən qeyri-sabit və gərgin siyasi, iqtisadi və sosial proseslərə baxmayaraq ölkəmizin uğurla inkişaf etdiyi barədə deyib: "2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. Dünyada və bölgəmizdə gedən proseslərdən asılı olmayaraq, Azərbaycan uğurla, sürətlə inkişaf etmişdir. Keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olunmuşdur, ölkəmizin hərtərəfli dinamik inkişafı təmin edilmişdir. Bildiyiniz kimi, keçən il dünyanın müxtəlif bölgələrində, o cümlədən bizim bölgəmizdə çox xoşagəlməz proseslər gedirdi, yeni risklər, yeni təhdidlər yaranır. Əvvəlki illərdə başlanmış münaqişələr, qanlı toqquşmalar davam edir, bir çox yerlərdə sabitlik pozulur, kütləvi etiraz aksiyaları geniş vüsət alır. Bu mənfi mənzərə fonunda Azərbaycanın uğurları özünü daha da qabarıq şəkildə büruzə verir. Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək".

Müasir dünyamızda bu problem hər bir dövlətin qarşısında çox kəskin durmaqdadır: Ölkə üçün zəruri iqtisadi sahələrin innovativ və rəqabətə davamlı inkişafı. Çünki 2014-cü ildən neft bazarında başlayan qiymətlərin ucuzlaşması və sabitləşmənin görünməməsi birtərəfi inkişafın nə qədər təhlükəli olduğunu ortaya qoyub. Azərbaycan bu istiqamətdə daim təsirli addımlar atıb və iqtisadiyyatın qeyri-neft sektorunun inkişafında mühüm nailiyyətlər qazanıb. Bu tərəqqi təbii ki, beynəlxalq əməkdaşlıq olmadan qazanıla bilməz. Ölkəmiz iqtisadi əməkdaşlıqda etibarlı və səmərəli tərəfdaşdır. Təbii ki, iqtisadiyyatı dirçəltmək üçün ilk növbədə xarici sərmayəni cəlb etmək lazımdır. Çünki müasir səviyyəli islahatlar həyata keçirmək, beynəlxalq bazara çıxmaq və ən əsası da lazım olan böyük maliyyə vəsaitini cəlb etmək investorlarsız mümkün deyildir. Bu da öz növbəsində ölkədə zəruri siyasi və iqtisadi islahatlar aparılmasını tələb edir. Bu tədbirlərin ölkə rəhbərliyi tərəfindən operativ surətdə həyata keçirilməsi nəticəsində hazırda Azərbaycanın mövcud qanunvericilik bazası ölkədə investisiya qoyuluşu üçün münbit şərait yaradıb. Təsadüfi deyil ki, 2018-ci ilədək ölkə iqtisadiyyatına 230 milyard dollar vəsait qoyulub. Bu əlverişli biznes mühiti dünyanın bütün ölkələrində və ən nüfuzlu beynəlxalq qurum və təşkilatlarda Azərbaycana marağı və etibarı daim artırmaqdadır.

Ölkəmiz Avropa və Asiyanın sərhədində, iki nəhəng sivilizasiyaların qovuşuğunda yerləşir. Bu geosiyasi məkan hər iki qitənin həm də siyasi, iqtisadi və sosial sahələrinin qovuşduğu, biri digərinə təsir etdiyi nöqtədir. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kursda bu amillər çox böyük uğurla nəzərə alınmışdır. Avropanın inkişaf etmiş iqtisadiyyatının və həmçinin sənayesinin Asiyanın, xüsusən də Xəzərin karbohidrogen ehtiyatlarına böyük ehtiyacı vardır. Qitələrin təmas xəttində yerləşən Azərbaycan bu ehtiyacın ödənilməsi üçün həm tranzit ölkə, həm də siyasi əməkdaşlıq körpüsü, sabitliyin, səmərəli qarşılıqlı əlaqələrin təminatşısı və vasitəçisi kimi çıxış edir. Buraya zəngin karbohidrogen ehtiyatlarını da əlavə etsək Azərbaycanın həmin inkişaf etmiş ölkələr üçün nə qədər böyük əhəmiyyət daşıdığını təsəvvür edə bilərik. Sabit iqtisadi inkişafa nail olmaq üçün Qərb, xüsusən də Avropa Birliyinə daxil olan ölkələr Azərbaycanda, ümumən bu regionda sabitliyin tam bərqərar olmasına, risklərin minimuma endirilməsi və siyasi-iqtisadi inteqrasiyanın daim genişlənməsi və dərinləşməsinə çalışırlar. Buna görə də onlar demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması və inkişaf etdirilməsi,vətəndaş cəmiyyətinin yaradılması və daim təkmilləşdirilməsinə önəm verirlər. Azərbaycanın beynəlxalq əməkdaşlığının sərhədlərinin daim genişlənməsi, diplomatik uğurlarının da göstəricisi, dünya birliyində mövqelərinin möhkəmlənməsinin bir daha təsdiqidir. Dövlət başçısı nitqində bu barədə vurğulayıb: "Həmçinin hesab edirəm ki, keçən il xarici siyasət sahəsində də uğurlu olubdur. Mən keçən il xarici ölkələrə 16 səfər etmişəm və Azərbaycana 16 dövlət və hökumət başçısı səfər edib. Bu, bir daha onu göstərir ki, bizim xarici siyasətimiz çoxşaxəlidir və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır. Əlbəttə, hesab edirəm ki, biz, ilk növbədə, qonşularımızla əlaqələrimizi daha yüksək pilləyə qaldıra bilmişik. Keçən il qonşu ölkələrin dövlət və hökumət başçıları ilə mənim çoxsaylı görüşlərim olub və bu görüşlərdə praktiki məsələlər həll edilib. Hər bir ölkə üçün onun qonşuları ilə yaxşı münasibətlərin qurulması çox vacib amildir. Azərbaycan o ölkələrdəndir ki, Ermənistandan başqa bütün qonşularımızla çox düşünülmüş siyasət apararaq gözəl münasibətləri qura bilib və ölkəmiz bu münasibətlərdən faydalanır. Həm regional təhlükəsizliyin inkişafı, eyni zamanda, nəqliyyat, energetika, ticarət məsələlərinin uğurla həlli, o cümlədən qonşularımızla münasibətlərdən asılıdır. Bir sözlə, qonşu ölkələrlə əlaqələrimiz çox müsbətdir və əminəm ki, bu il də bu istiqamətdə yeni müsbət addımlar atılacaqdır."

Üçüncü Dövlət Proqramının operativ icra edilməsi sosial və iqtisadi inkişafın növbəti beş il ərzində daha yüksək mərhələyə qədəm qoyması üçün yeni mühüm pillə oldu. Bu proqram da çox müfəssəl, xüsusən qeyri-neft sektorunun, sənayeləşmənin daha əhatəli, geniş sahələrinin inkişafını təmin edən bir sənəd idi. Hər bir rayon üzrə konkret vəzifələr, tapşırıqlar vardı. Təbii ki, icra mexanizmləri, maliyyə resursları da bu Proqramı dəstəkləməsi qarşıya qoyulan hədəflərə uğurla çatılmasına imkan verdi. Yeni sənaye və ənənəvi məşğulluq sahələri, bütün infrastruktur layihələri icra edilmiş və müasirləşdirilmişdir. Qazlaşdırma, elektrik enerjisi ilə təminat daha da yaxşılaşdırılmışdır, içməli su, kanalizasiya, kənd yollarının tikintisi layihələrinin icrası davam edilmişdir. Yeni iş yerləri açılmış, məktəblər, xəstəxanalar, tibb məntəqələri tikilmişdir. Dövlət başçısı ötənilki sosial iqtisadiyyatda qazanılan artım barədə deyib: "Bizim bütün iqtisadi göstəricilərimiz çox müsbətdir. Mən bəzi göstəriciləri ictimaiyyətin diqqətinə çatdırmaq istəyirəm. Ümumi daxili məhsul, yəni, iqtisadi artım keçən il Azərbaycanda 1,4 faiz olmuşdur. Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Əlbəttə ki, bizim arzularımızı tam əks etdirmir. Ancaq, eyni zamanda, dünyada gedən proseslərə baxdıqda hesab edirəm ki, yaxşı göstəricidir. Ondan daha yaxşı göstərici qeyri-neft sektorunun inkişafıdır. Burada da inkişaf 1,8 faizdir. Sənaye istehsalı 1,5 faiz artıb, qeyri-neft sektorunda isə sənaye istehsalı 9,1 faiz artıb. Bu, onu göstərir ki, sənayeləşmə siyasətimiz öz gözəl nəticələrini verir. İnflyasiya cəmi 2,3 faizdir, əhalinin pul gəlirləri 9,2 faiz artıb. Görürsünüz ki, əhalinin gəlirləri inflyasiyanı üstələyir. Əgər biz 2017-ci ilə nəzər salsaq görərik ki, inflyasiya 12 faizdən çox idi, indi isə 2,3 faizdir. Manatın məzənnəsi sabitdir. Kənd təsərrüfatı 4,6 faiz artıb. Hesab edirəm ki, bu da yaxşı göstəricidir".

**(davamı 7-ci səhifədə)**

# Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi ötən il də diqqət mərkəzində saxlanılıb

**Yanvarın 15-də Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi və Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya tərəfindən 2018-ci il ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərlə bağlı KİV və QHT nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilib.**

AZƏRTAC xəbər verir ki, mətbuat konfransında çıxış edən baş prokurorun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə əvvəlki dövrlərdə olduğu kimi, 2018-ci ildə də bütün sahələrdə dinamik inkişafa nail olunduğunu bildirib. Vurğulanıb ki, ölkəmizin milli təhlükəsizliyinin, iqtisadi maraqlarının və vətəndaşların rifahının yüksəlməsinə xidmət edən dövlət idarəçiliyinin məntiqi nəticəsi olaraq aprelin 11-də keçirilən demokratik, şəffaf və ədalətli seçkilər yolu ilə xalqımız növbəti dəfə qəti iradə nümayiş etdirərək ulu öndər Heydər Əliyev siyasi kursuna səs verib.

Diqqətə çatdırılıb ki, hesabat dövründə Prezident İlham Əliyevin siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizə tədbirləri daha intensiv xarakter alıb. Ölkəmizdə iqtisadiyyatın liberallaşdırılması, bürokratik əngəllərin aradan qaldırılması, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, şəffaflığın və hesabatlılığın təmin edilməsi və digər bu kimi korrupsiyaya qarşı mübarizə tədbirlərinə əsaslanan ardıcıl hüquqi və institusional islahatlar həyata keçirilib.

Xüsusi vurğulanıb ki, əvvəlki illərdə olduğu kimi, hesabat dövründə də prokurorluq orqanları korrupsiyaya qarşı mübarizəni fəaliyyətinin başlıca xətti kimi müəyyən edib. Baş İdarə prokurorluq orqanlarının digər qurumları ilə əlaqəli şəkildə bütün səylərini qarşıya qoyulmuş vəzifələrin uğurla və daha səmərəli şəkildə icra edilməsinə, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatların əsas təminatlarından olan ictimai-siyasi sabitliyin qorunmasına və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə yönəldib. Bu müddətdə Baş İdarə tərəfindən vətəndaşların 8058 müraciətinə baxılıb, 310 cinayət xarakterli material araşdırılıb. Həmin materialların 222-si (71,7 faizi) üzrə cinayət işi başlanıb, 88 (28,3 faiz) material üzrə digər prokuror təsir aktları tətbiq edilməklə 61 nəfər vəzifəli şəxs intizam məsuliyyətinə cəlb edilib. Korrupsiya hüquqpozmaları barədə müraciətlərin fasiləsiz rejimdə qəbulu məqsədilə yaradılan və Baş İdarə ilə vətəndaşlar arasında mühüm dialoq vasitəsi rolunu oynayan 161 "Qaynar xətt" əlaqə mərkəzinə hesabat dövründə 3854 müraciət daxil olub. Həmin müraciətlərin 19-u üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanıb. Həmçinin aidiyyəti dövlət qurumları ilə birgə görülmüş tədbirlər nəticəsində digər müraciətlərin müsbət həlli təmin edilməklə vətəndaşların pozulmuş hüquqları bərpa olunub. Aşkarlanmış qanun pozuntularının aradan qaldırılması məqsədilə müvafiq təşkilatlara təqdimatlar göndərilib. Hesabat dövründə Baş İdarənin əməliyyat qurumları öz vəzifələrini uğurla icra edərək keçirdikləri əməliyyat tədbirləri nəticəsində 25 şəxs cinayət başında yaxalanıb. Əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında isə 24 cinayət işi başlanıb.

Məlumat verilib ki, 2018-ci il ərzində Baş İdarədə 431 şəxs barəsində 278 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib. Həmin cinayət işlərindən 121 şəxs barəsində 68 iş mənimsəmə və israf etmə, 86 şəxs barəsində 55 iş dələduzluq, 33 şəxs barəsində 21 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 23 şəxs barəsində 13 iş rüşvət alma (passiv rüşvətxorluq), 46 şəxs barəsində 36 iş rüşvət vermə (aktiv rüşvətxorluq) və şəxsi rüşvət verməyə təhrik etmə, qalanları isə digər korrupsiya cinayətləri ilə bağlı olub. Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə 120 milyon manat məbləğində maddi ziyandan ibtidai araşdırma mərhələsində 53,3 milyon manatın ödənilməsi təmin edilib. Həmçinin qalan ziyanın ödənilməsini təmin etmək məqsədilə 34,2 milyon manat dəyərində qiymətləndirilən əmlak üzərinə həbs qoyulmaqla, ümumilikdə vurulmuş maddi ziyanın 73 faizinin ödənilməsi təmin olunub. Bununla yanaşı, törədilmiş və ya hazırlanan korrupsiya ilə əlaqədar hüquqpozmalara dair baxılmış məlumatlar üzrə araşdırma müddətində 2,6 milyon manat məbləğində maddi ziyanın ödənilməsi təmin edilib.





Qeyd edilib ki, hesabat dövründə Baş İdarə rəisi və onun müavinləri, idarə və şöbə rəisləri, təşkilati və informasiya təminatı idarəsinin prokurorları tərəfindən ümumilikdə 1620 vətəndaş qəbul edilib. Korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin mühüm əhəmiyyəti nəzərə alınaraq, korrupsiya cinayətləri və hüquqpozmalarının yayıldığı sahələrin müəyyənləşdirilməsinə diqqət artırılmaqla preventiv tədbirlərin təsir gücünün məhz bu istiqamətlərə yönəldilməsi son illərin təcrübəsi ilə bir daha təsdiqini tapır. Əvvəlki dövrlərdə olduğu kimi, hesabat ilində korrupsiyaya qarşı mübarizə sahəsində bir sıra qabaqlayıcı tədbirlər həyata keçirilib. Otuz iki xüsusat üzrə inzibati pozuntu aşkarlandığından İnzibati Xətalar Məcəlləsinin 54-cü, 192.1-ci və 198.0.1-ci maddələrinin tələblərinə əsasən, inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilərək aidiyyəti üzrə məhkəmələrə göndərilib. Araşdırılması üçün aidiyyəti qurumlara göndərilmiş müraciətlər üzrə aparılmış xidməti yoxlamalar nəticəsində vəzifəli şəxslərin hərəkətlərində aşkarlanan cinayət xarakterli olmayan hüquqpozmalar üzrə 25 vəzifəli şəxsə xəbərdarlıq, 16 vəzifəli şəxsə töhmət verilib, 3 vəzifəli şəxs şiddətli töhmət növündə intizam məsuliyyətinə cəlb olunub, 17 nəfər isə vəzifəsindən azad edilib. Habelə yol verilmiş qanun pozuntularının aradan qaldırılması və gələcəkdə təkrarlanmaması üçün müxtəlif dövlət qurumlarına və vəzifəli şəxslərə 157 təqdimat göndərilib.

Bildirilib ki, hesabat dövründə Baş İdarə tərəfindən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanmış "Tikinti sahəsində qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması ilə bağlı nəzarətin gücləndirilməsinə dair tədbirlər haqqında" 2017-ci il 28 aprel tarixli Fərmana uyğun olaraq, bu sahədə vətəndaşların əmək hüquqlarının pozulmasına yönəlmiş qanunsuz hərəkətlərə qarşı Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi ilə birgə ən ciddi mübarizə tədbirləri davam etdirilib. Mərkəzdən daxil olmuş 23 material əsasında aparılmış araşdırmalar zamanı bir sıra şirkətlərin rəhbərləri tərəfindən ayrı-ayrı şəxslərin Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi hüquqi qüvvəyə minmədən xidmətlərin yerinə yetirilməsinə cəlb edilmələri halları müəyyənləşdirildiyindən 1 cinayət işi və 14 inzibati xəta haqqında iş üzrə icraatın başlanması təmin edilib. "Prokurorluq haqqında" qanunun 22-ci və 23-cü maddələrinə əsasən, həmin şirkətlərin rəhbərlərinə gələcəkdə hər hansı işlərin görülməsi zamanı işlərə cəlb edilmiş işçilərin hüquqlarının pozulması hallarına yol verilməməsi, əks təqdirdə barələrində daha ciddi məsuliyyət tədbirləri görüləcəyi barədə 25 rəsmi xəbərdarlıq elan olunub. Eləcə də bu növ qanun pozuntularını doğuran səbəb və şəraitin aradan qaldırılmasına dair müvafiq təşkilatlara 50 təqdimat verilib. Həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində əmək münasibətləri rəsmiləşdirilmədən tikinti şirkətlərində işə cəlb olunan 414 işçi ilə əmək müqavilələrinin bağlanması təmin edilib.

Vurğulanıb ki, ötən il Baş İdarə ilə Dövlət Gömrük Komitəsi, Vergilər Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və Qida Təhlükəsizliyi Agentliyi arasında səmərəli işgüzar əməkdaşlıq intensivləşib. Bu, qabaqlayıcı əhəmiyyətə malik olmaqla həmin sahələrdə korrupsiya cinayətlərinin və digər hüquqpozmaların vaxtında aşkarlanmasına, onların aradan qaldırılmasına, həmin qanun pozuntularına yol vermiş şəxslərin ifşa olunaraq cinayət və inzibati məsuliyyətə cəlb edilmələrinə və bununla da digər şəxslər tərəfindən qanun pozuntusuna yol verilməsinin qarşısının alınmasına böyük töhfə verib. Ötən il Baş İdarəyə Dövlət Gömrük Komitəsindən 17, Vergilər Nazirliyindən 7, Ekologiya və Təbii Sərvətlər Nazirliyindən 21, Qida Təhlükəsizliyi Agentliyindən 8, Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən 6, məhkəmələrdən isə 22 material daxil olub. Nəticədə 43 material üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işi başlanıb.

Diqqətə çatdırılıb ki, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın və mövcud qanunvericiliyin səmərəli tətbiqi üçün qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsinin zəruriliyi nəzərə alınaraq hesabat dövründə Baş İdarə tərəfindən bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlar və digər ölkələrin hüquq-mühafizə orqanları ilə əlaqələrin daha da genişlənməsinə xüsusi diqqət yetirilib, ölkəmizin korrupsiyaya qarşı mübarizədə əldə etdiyi mühüm nailiyyətlər beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilib. Beynəlxalq əməkdaşlıq sahəsində görülmüş işlərin məntiqi nəticəsi olaraq, Avropa Şurasının MONEYVAL Komitəsinin 57-ci plenar iclası çərçivəsində cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində ölkəmizin IV raund qiymətləndirilməsi üzrə növbəti tərəqqi hesabatı dinlənilməklə, Azərbaycan Respublikasında bu sahə beynəlxalq səviyyədə mövcud standartlara tam cavab verən sistem kimi qiymətləndirilib, MONEYVAL-ın tövsiyələrinin ölkəmiz tərəfindən müvəffəqiyyətlə yerinə yetirildiyi qənaətinə gəlinib. Həmçinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı üzrə 19-cu monitorinq görüşündə Şəbəkənin IV Monitorinq Raundu üzrə ölkəmizə dair verilmiş tövsiyələrin böyük qismində icrası istiqamətində əsaslı nailiyyətin əldə olunması barədə yekdil fikrə gəlinib və dövri hesabat qənaətbəxş qiymətləndirilərək qəbul edilib. Bundan əlavə, Baş İdarənin rəisi tərəfindən ötən il Strasburqda Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO) 81-ci plenar iclasında korrupsiyanın qarşısının alınmasına və aşkarlanmasına məsul olan dövlət qurumları arasında təcrübə mübadiləsinin həyata keçirilməsi məqsədilə təsis edilmiş Korrupsiyanın qarşısının alınması üzrə Orqanlar Şəbəkəsinə Azərbaycanın qoşulması ilə bağlı bəyannamə imzalanıb.

Son illər əhəmiyyətli beynəlxalq tədbirlərə ev sahibliyi edən əlverişli məkan olaraq tanınan Azərbaycanda keçirilən genişmiqyaslı tədbirlərdən biri kimi respublikamızın dünya prokurorlarını bir qurumda birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyasının işində fəal iştirakı, təşəbbüskarlığı və səmərəli təmsilçiliyi nəzərə alınaraq, Assosiasiyanın İcraiyyə Komitəsinin 45-ci iclası Bakıda təşkil olunub. Təşkilata üzv olan ölkələrin prokurorluq orqanlarının yüksək səviyyəli şəxslərinin iştirak etdikləri tədbirdə Assosiasiyanın rəsmi internet səhifəsinin antikorrupsiya saytının fəaliyyətinin Azərbaycan prokurorluğu tərəfindən hazırlanması xüsusi qiymətləndirilib.

Beynəlxalq Prokurorlar Assosiasiyasının ötən ilin sentyabrında Cənubi Afrika Respublikasının Yohannesburq şəhərində keçirilmiş 23-cü illik konfransı və ümumi yığıncağında Azərbaycan Respublikasının Prokurorluğu xüsusi mükafatla - Assosiasiyanın fəxri sertifikatı ilə təltif edilib. Sertifikat ölkəmizdə prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı həyata keçirilmiş mütərəqqi islahatlar, Azərbaycan Prokurorluğu ilə Assosiasiya arasında əməkdaşlıq, o cümlədən bu qurumun İcraiyyə Komitəsinin Bakıda keçirilmiş 45-ci iclasının yüksək səviyyədə təşkilinə görə verilib. Eyni zamanda, həmin konfrans çərçivəsində Azərbaycan Prokurorluğunun nümayəndəsi Beynəlxalq Prokurorlar Assosiasiyasının vitse-prezidenti seçilib.

Qeyd edilib ki, ötən il Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla yanaşı, bu sahədə qabaqcıl və müsbət təcrübəyə malik olan ölkələrin ixtisaslaşmış antikorrupsiya qurumları ilə də ikitərəfli səmərəli əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində zəruri tədbirlər görülüb. İtaliya, Monqolustan, İran kimi xarici dövlətlərin hüquq-mühafizə orqanları ilə səmərəli əməkdaşlıq münasibətləri uğurla davam etdirilib. Əməkdaşlıq çərçivəsində Baş İdarə ilə İranın Baş Təftiş Təşkilatı və Monqolustanın Korrupsiyaya Qarşı Mübarizə üzrə Müstəqil Xidməti arasında korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizədə əməkdaşlıq haqqında anlaşma memorandumları imzalanıb. Bundan başqa, Avropa İttifaqının Avropa Qonşuluq Siyasətinin "Şərq Tərəfdaşlığı" və TAİEX (Texniki Yardım və İnformasiya Mübadiləsi) aləti çərçivəsində, Beynəlxalq Antikorrupsiya Akademiyası (İACA), Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatı (GUAM) və digər təşkilatlarla səmərəli əməkdaşlıq aparılıb.

Baş İdarənin fəaliyyətində korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlar və xarici ölkələrin ixtisaslaşmış antikorrupsiya qurumları ilə yanaşı, respublikanın dövlət qurumları ilə də qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişafı mühüm yer tutub. Ötən dövrdə Baş İdarə ilə Dövlət Gömrük, Dövlət Şəhərsalma və Arxitektura komitələri, Qida Təhlükəsizliyi Agentliyi, eləcə də Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında müvafiq olaraq gömrük işi, tikinti-şəhərsalma, qida təhlükəsizliyi və sahibkarların hüquqlarının müdafiəsi sahələrində korrupsiyaya qarşı birgə mübarizənin daha səmərəli təmini məqsədilə anlaşma memorandumları imzalanıb.

Korrupsiyaya qarşı mübarizədə qeyri-hökumət təşkilatları ilə sıx münasibətlərin qurulmasına xüsusi önəm verən Baş İdarənin fəaliyyəti, son vaxtlar bu sahədə qəbul edilmiş qanunvericiliyin tələbləri, beynəlxalq əməkdaşlıq nəticəsində həyata keçirilən tədbirlər, həmin tədbirlərin reallaşmasında dövlət qurumlarının və vətəndaş cəmiyyətinin rolu, Baş İdarə tərəfindən həyata keçirilən uğurlu əməliyyat tədbirləri, istintaqı aparılan cinayət işləri və digər mühüm məsələlərlə əlaqədar kütləvi informasiya vasitələrində ictimaiyyətə mütəmadi məlumat verilib.

Mətbuat konfransında çıxış edən Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın katibi Kamal Cəfərov bildirib ki, 2018-ci ildə dövlət idarəçiliyində səmərəliliyin artırılması, şəffaflığın gücləndirilməsi və açıq hökumət sahəsində həyata keçirilən tədbirlər davam etdirilib. Vergi və gömrük sahələrində şəffaflıq daha artırılıb, sahibkarlıq və investisiya mühiti yaxşılaşdırılıb. Həyata keçirilən islahatlar nəticəsində Azərbaycan "Doing Business"in 2018-ci il hesabatında 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerə layiq görülüb.

Qeyd edib ki, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq standartlara cavab verən institusional, qanunvericilik və inzibati tədbirlər uğurla icra olunub. Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı dövlət orqanları tərəfindən 89 faiz yerinə yetirilib. Elektron hökumət sahəsində dövlət siyasətini icra etmək, dövlət informasiya sistemlərinin səmərəli inteqrasiyasını həyata keçirmək məqsədilə Prezident İlham Əliyev tərəfindən "Elektron xidmətlərin inkişafı və rəqəmsal hökumətə keçid" haqqında Fərman imzalanıb və Elektron Hökumətin İnkişafı Mərkəzi yaradılıb. Etik davranış qaydalarının əhatə dairəsinin genişləndirilməsi ilə əlaqədar beynəlxalq təcrübəyə uyğun olaraq, Milli Məclisin deputatları, bələdiyyə üzvləri və bələdiyyə qulluqçularının etik davranış qaydaları ilə bağlı qanunlar qəbul edilib. Korrupsiyanın qarşısının alınması sahəsində təhsilin rolunun artırılması məqsədilə "Azərbaycan Antikorrupsiya Akademiyası" layihəsi çərçivəsində dövlət qurumlarının 800-dən çox əməkdaşına 60-dan çox təlim keçirilib.

Diqqətə çatdırılıb ki, tikilməkdə olan və ya tikilmiş və istismara qəbul edilməmiş çoxmənzilli binalarda mənzillərin bir neçə şəxsə satılması kimi mənfi halların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər edilib. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı"nın 2018-ci il üçün icrası uğurla təmin edilib. Avropa Şurasının MONEYVAL Komitəsinin tövsiyələrinin icrası ilə bağlı bir sıra vacib qanunvericilik aktları qəbul edilib. Bu sahədə dövlət siyasətinin vahid çərçivədə icrası məqsədilə Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti yaradılıb, fəaliyyəti təmin edilib və Maliyyə Monitorinq Xidməti Eqmont qrupuna üzv olub.

K.Cəfərov korrupsiyanın qarşısının alınması sahəsində Komissiyanın "Qanunvericiliyinin təkmilləşdirilməsi üzrə" İşçi Qrupu tərəfindən yeni Milli Strategiyanın və Tədbirlər Planının layihəsinin hazırlandığını və prosesin müvafiq dövlət orqanları, beynəlxalq ekspertlər və təşkilatlar, vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə cari il ərzində yekunlaşacağını bildirib.

Qeyri-hökumət təşkilatlarının nümayəndələri çıxışlarında hesabat dövründə Baş İdarənin korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyətini müsbət dəyərləndiriblər.

Mətbuat konfransında yanvarın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlətimizin başçısının ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, iqtisadi, sosial və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan rüşvətxorluq və korrupsiya kimi mənfi təzahürlərə qarşı daha ciddi mübarizənin aparılması sahəsində verdiyi göstərişlərə uyğun olaraq, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin korrupsiya hüquqpozmalarını doğuran səbəb və şəraitin müəyyənləşdirilməsi və cinayətlərin qarşısının alınması istiqamətində sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirlərini bundan sonra da davam etdirəcəyi xüsusi vurğulanıb.

Sonda QHT və KİV nümayəndələrinin sualları ətraflı cavablandırılıb.

**AZƏRTAC**

*Cəlil Xəlilov:*

# Azərbaycan Ordusu xalqımızın qürurudur

**Hərbi qüdrətini davamlı olaraq artıran Azərbaycan Silahlı Qüvvələri dünyanın 50 ən güclü ordusu sırasındadır. Azərbaycan Ordusu ən müasir silahlarla, hərbi texnika və müdafiə təyinatlı qurğularla tam təchiz edilib. Ordumuzun hərbi-texniki və döyüş hazırlığının yüksək səviyyədə olduğunu son dövrlərdə qazanılan hərbi uğurlar da aydın surətdə göstərir. Ölkə rəhbərliyinin bu istiqamətdə həyata keçirdiyi uğurlu siyasətin və düşünülmüş strateji xəttin nəticəsidir ki, bu gün Azərbaycan ən müasir silahları almaqla yanaşı, onların bir çoxunu özü istehsal etmək qabiliyyətindədir. Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında söylədiyi fikirlər bunun sübutudur.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov söyləyib.

Respublika Veteranlar Təşkilatının sədr müavini bildirib ki, Azərbaycan Ordusunun qüdrəti gündən-günə artır, qələbələr, nailiyyətlər bir-birini əvəzləyir. Ordumuzun aprel döyüşlərində qazandığı qələbə, eləcə də 2018-ci ildə həyata keçirdiyi uğurlu Naxçıvan əməliyyatı işğal atındakı torpaqlarımıza tam nəzarət etməyə imkan verir. Bu əməliyyat nəticəsində əldə edilmiş yüksəkliklər strateji xarakter daşıyır. Bu yüksəkliklər Azərbaycan Ordusuna Ermənistanı Dağlıq Qarabağla birləşdirən yola tam nəzarət etmək imkanı yaradır. Aprel döyüşləri və Naxçıvan əməliyyatı bir daha göstərdi ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq və öz ərazi bütövlüyünü hərbi yolla bərpa etməyə qadirdir.

Azərbaycan Ordusunun 100 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsinin ölkəmiz üçün əlamətdar olduğunu diqqətə çatdıran ehtiyatda olan polkovnik deyib ki, bu münasibətlə təşkil edilmiş parad ordumuzun gücünü nümayiş etdirdi. Prezident İlham Əliyev nitqində bu məsələni xüsusi vurğulayaraq deyib: "Mən onların arasında əlbəttə ki, xüsusilə uzaqmənzilli "Polonez" və "LORA" raket sistemlərini qeyd etmək istərdim. Qarşı tərəfin bu sistemlərə qarşı heç bir müdafiə imkanı yoxdur. Bu sistemlər 300 kilometr və ondan çox məsafəni qət edərək çox yüksək dəqiqliklə və böyük dağıdıcı qüvvə ilə istənilən hərbi hədəfi məhv edə bilər. Mən bir daha demək istəyirəm, düşmənin elə bir hərbi hədəfi yoxdur ki, biz onu dəqiqliklə məhv edə bilməyək". Həmçinin parad zamanı fəxrlə nümayiş etdirdiyimiz silah və sursatın, texnikanın əksəriyyətinin Azərbaycanda istehsal edilməsini xüsusi vurğulamaq lazımdır. Ölkəmizdə ümumilikdə 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir. Yeni pilotsuz döyüş uçuş aparatlarının əldə edilməsi və onlardan yüksək dəqiqliklə istifadə olunması, hava və raket hücumlarına qarşı aldığımız sistemlər Azərbaycan Ordusunun hərbi qüdrətini, müdafiə potensialını və hücum gücünü daha da artırıb.



C.Xəlilov qeyd edib ki, Ordunun kadr potensialının artırılması, şəxsi heyətin bilik və bacarığının, döyüş ruhunun yüksəldilməsi, hərbçilərin sosial problemlərinin həlli dövlətin qarşıya qoyduğu prioritet məsələlərdəndir. Ümummilli lider Heydər Əliyev deyirdi: "Müharibə etmək, sadəcə, müxtəlif istiqamətlərdən atəş açmaq deyil. Bu, mükəmməl təcrübə, təkmil hazırlıq və yüksək döyüş ruhu tələb edir". Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin siyasi kursunun layiqli davamçısı kimi, bu məsələnin də öhdəsindən layiqincə gəlib. Artıq Azərbaycan hərbçisinin qarşısında bir hədəf var, o da ərazilərimizin işğaldan azad edilməsidir.

"Ermənistan və ona havadarlıq edən qüvvələr Azərbaycan Ordusunun gücünü və qüdrətini artıq bilir. Düşmən bilir ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və işğal altındakı torpaqlarımızın bütövlükdə qaytarılacağı və ya Ermənistanın buna məcbur ediləcəyi gün yaxındadır", - deyə ehtiyatda olan polkovnik bildirib.

**AZƏRTAC**

## 20 Yanvar Ümümxalq Hüzn Günüdür

# Azərbaycan xalqının qəhrəmanlıq salnaməsi



**Azərbaycan tarixinin şərəfli və qürur duyulacaq səhifələri çoxdur. 20 Yanvar da onlardan biridir. Məhz həmin gün Azərbaycanın müstəqilliyinin bərpasının ilk addımını atdı. Cavabında isə imperiya ordusu tərəfindən qan gölündə boğuldu.**

29 il əvvəl üzləşdiyimiz belə bir məqamdə xalqımızın mübarizlik əzminin təzahürü, təzyiqlərə boyun əyməyən əzmkar iradə nümayiş etdirməsi tariximizə yeni bir mübarizə səhifəsi yazdı - Qanlı Yanvar səhifəsi. 20 Yanvar yaxın keçmişimizdə yaşamış olduğumuz ən faciəvi günlərdən biri olsa da, xalqımızın yaddaşına həm də qəhrəmanlıq tarixi kimi həkk olundu.

Bu mücadilənin mahiyyətinə nəzər salanda görürsən ki, Azərbaycan xalqı tarixi azadlığa, müstəqilliyə çatmaq üçün hər cür gərgin mübarizəyə və qurbanlar, şəhidlər verməyə hazır olmuşdur. Bu baxımdan xalqımızın tarixinə növbəti sınaq məqamı, qəhrəmanlıq və inam günü kimi yazılır. Həmin gün Sovet silahlı cəza dəstələri tərəfindən 132 nəfərin yaralanması onu təsdiq edir ki, azadlıq və müstəqillik uğrunda gedən mübarizənin bütün mərhələlərində hər bir azərbaycanlı fədakarlıq göstərməyə, hətta canını qurban verməyə belə hazır idi.

XX əsrin sonuna yaxın dünyanın siyasi leksikasına yeni bir aktual "Dağlıq Qarabağ münaqişəsi" kimi ifadə daxil oldu. Azərbaycanın mədəniyyət ocaqlarından olan Qarabağ həmin vaxtdan xalqımızın bu günə qədər yaşadığı olduqca böyük milli faciə fəlakətin rəmzinə çevrilmişdir. 1987-ci il ildən başlayaraq erməni daşnakları Dağlıq Qarabağı Azərbaycanın tərkibindən alıb Ermənistanın tərkibinə qatmağa cəhd göstərdilər. Onlar tələblərini belə bir "tarixi həqiqətlərə əsaslandırırdılar ki, guya Dağlıq Qarabağ həmişə əzəli erməni ərazisi olmuş və 1923-cü ildə Azərbaycana bağışlanmışdır. Vurğulamaq lazımdır ki, bu məsələ hələ 40-cı illərdə Ermənistanda təşkil edilməsi "Qarabağ Komitəsi" tərəfindən irəli sürülmüş, lakin münasib şərait indi yaranmışdı. 1988-ci ilin fevralından başlanan hadisələr qəti tədbirlər görülməsini tələb edird. Lakin ovaxtkı SSRİ rəhbərliyinin susması, Ermənistan və Dağlıq Qarabağda mitinq və nümayişlərə "tam sərbəstlik" verilməsi ermənilərin "haqq işinin" dəstəklənməsi kimi qiymətləndirilirdi. Moskva, mərkəzi hakimiyyət, xüsusilə ermənipərast Qorbaçov Qarabağ mövzusu üzərinə moratorium qoymaq kimi yanlış bir taktikaya əl atdı. Xəyanət nəticəsində 1988-ci ildə azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası baş verdi.

1990-cı il yanvarın 20-də Sovet ordusunun hərbi birləşmələri, xüsusi təyinatlı bölmələri və daxili qoşunlar fövqəladə vəziyyət elan etmədən Bakının görünməmiş vəvşılık və qəddarlıqla işğal etdilər.

Bu akt dəhəştli hərbi cinayət idi. 20 Yanvar faciəsinə ilk siyasi qiyməti 1990-cı il yanvarın 21-də ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyev verdi. O, öz həyatını real təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmiş, ifşaedici və cəsarətli bir bəyanət vermişdi. Ulu öndər bəyanatında xalqımıza qarşı tötədilmiş qanlı cinayəti pisləmiş, bu aksiyanın məsuliyyətinin o dövrkü SSRİ və Azərbaycan rəhbərlərinin üzərinə düşdüyünü bildirmiş və bütün azərbaycanlıları həmrəyliyə çağırmışdır. Az sonra Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Alı Məclisi 1991-ci il noyabrınm 24-də Yanvar hadisələrinə ilk siyasi qiymət verdi. Azərbaycan Respublikası səviyyəsində əsl hüquqi qiymət verilməsi də Heydər Əliyev yenidən hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur. Məhz ulu öndərin təşəbbüsü ilə 29 mart 1994-cü il tarixdə Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda tötədilmiş faciə haqqında" qərar qəbul etdi, Sənəddə Bakı şəhərinə Sovet Silahlı Qüvvələrinin yeridilməsi Azərbaycan xalqına qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirildi.

Qeyd etmək lazımdır ki, hər yerdə olduğu kimi, 20 Yanvar hüzn gününə məktəbimizdə də geniş hazırlıq işləri aparılmışdır. Belə ki, tədbirlər planına uyğun olaraq xalqımızın mübarizə tarixi olan 20 yanvarla bağlı fotostendlər hazırlanmış, divar qəzetləri buraxılmış, inşa yazılar hazırlanmıs, rəsm müqabiləsi "20 Yanvar xalqımızın qan yaddaşıdır" adlı ədəbi-bədii gecə keçirilmişdir. Həmçinin faciə günündə məktəbin şagirdləri şəhidlər xiyabanını ziyarət edəcəklər.

Zaman keçsə də, əslər ötsə də, bu qətliam Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcək. Çünki 20 Yanvar Azərbaycan xalqının qəhrəmanlıq salnaməsidir.

**Sitarə ABBASOVA,**
**Yasamal rayonundakı 173 nömrəli məktəbin direktoru.**

# İnsanlıq əleyhinə törədilmiş ən ağır cinayət

**1989-cu ildə Azərbaycanda azadlıq hərəkatı getdikcə güclənirdi. Sovet dövlətinin rəhbərləri bununla heç cür razılaşa bilmirdilər. Azərbaycanın itirilməsi Rusiya üçün, hər şeydən əvvəl, Azərbaycanın zəngin sərvətlərinin və yüzlərlə sənaye müəssisələrinin əldən çıxması demək idi.**

M.Qorbaçovun rəhbərlik etdiyi sovet rejimi SSRİ-nin dağılmasının qarşısını almaq, azadlığını tələb edən başqa xalqlara da "dərs vermək" üçün Bakını qan içində boğmaq qərarına gəlmişdi. Odur ki, Bakı ətrafına sovet ordusunun qoşun hissələri gətirilir və şəhər narahat günlərini yaşayırdı.

1990-cı il yanvarın 19-da axşam şəhərdə həyəcan daha da artdı. Axşamdan xeyli keçmiş şəhərin kənarından atəş səsləri eşidilməyə başladı. İşıq saçan güllələr Bakının səmasını bürümüşdü. Tankların, zirehli hərbi maşınların uğultusu, top səsləri ara vermirdi. Silahsız xalq güllə selinin altında hara gəldi qaçır, gizlənməyə yer axtarırdı. Tanklar, zirehli maşınlar projektorlarını yandırdılar. Əsgərlər güllə yağışından daldalanan adamları tapıb atəşə tutur, tanklar camaatın sıx yerinə yönəlir və adamların üstündən keçib gedirdilər. Yaşayış evləri belə gülləyə tutulur, yaralıları xilas etməyə gələn təcili yardım maşınları da hədəf olurdu.

Bakıya daxil olan silahlı qoşun milliyyətindən, yaşından və cinsindən asılı olmayaraq 147 nəfər silahsız mülki şəxsi, o cümlədən yaşlıları, qadınları və uşaqları amansızcasına öldürmüş, paytaxtda, şəhərətrafı qəsəbələrdə və rayonlarda 744 dinc, günahsız insanı yaralamışdır. Yüzlərlə adam itkin düşmüş, 841 nəfər qanunsuz olaraq həbs edilmişdir. Hücum zamanı qadağan edilmiş silah və sursatdan istifadə olunmuş və çox böyük dağıntılar törədilmişdir.

Xalqımızın bu ağır günündə ulu öndər Heydər Əliyev xəstə olmasına və təqib edilməsinə baxmayaraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək doğma xalqına başsağlığı verdi. O, Bakıya qoşun yeridib xalqa divan tutulduğu üçün SSRİ-nin və Azərbaycan SSR-in rəhbərlərini kəskin tənqid etdi və qanlı qırğını törədənlərin cəzalandırılmasını istədi.

Ulu öndər sonralar Naxçıvan Muxtar Respublikasının başçısı, daha sonra isə Azərbaycan Respublikasının Prezidenti olanda 20 Yanvar hadisəsini dəfələrlə yada salmış, ona düzgün və siyasi qiymət verilməsini tələb etmişdir. Ümummilli liderin tövsiyəsi ilə Azərbaycan Milli Məclisi xüsusi sessiya keçirmiş və bu qanlı hadisəyə siyasi-hüquqi qiymət verilmişdir.

20 Yanvar faciəsi xalqımızın iradəsini qıra bilməmiş və azadlıq mübarizəsi 1991-ci ildə ölkəmizin müstəqilliyinin bərpası ilə nəticələnmişdir. Faciə zamanı qətlə yetirilmiş vətəndaşlara Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına əsasən "20 Yanvar Şəhidi" fəxri adı verilmiş, habelə "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" Sərəncama əsasən bu şəxslərə dövlət tərəfindən müavinət, şəhid ailələrinə isə Prezident təqaüdü verilir.

Ulu öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də tarixi yaddaşı nəsildən-nəslə ötürmək, azadlıq mücahidlərinə ehtiram və böyük kursunu əsl vətənpərvərlik məktəbi kimi davam etdirir. Azadlıq mübarizəsinə, şəhid ailələrinə böyük qayğı ilə yanaşır. Dövlət başçısı 20 Yanvar sovet ordusunun bu təcavüzünün mahiyyəti, xalqımızın qəhrəmanlığı barədə deyib: "20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya sübut etdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".

20 Yanvar faciəsi respublikamızda hər il Ümumxalq Hüzn Günü kimi qeyd olunur və şəhidlər ehtiramla yad edilir.

***Qanlı Yanvar hadisələri zamanı 1 saylı Klinik Xəstəxanada cərrah-həkim işləyən Rövşən Kərimov və Elçin Mehtiyev o faciəli günləri xatırlayaraq ürək yanğısı ilə danışdılar.***

**Rövşən Kərimov:** - 19 yanvar 1990-cı il tarixdə mən, rəhmətlik Əmirxan Məmmədov və bir neçə köməkçi həkim qrafik üzrə növbədə idik. Axşam saatlarında xəstəxananın Baş həkimi rəhmətlik Nabatxanım Qədirova və Cərrahiyyə şöbəsinin müdiri Həsən Tağıyev yanımıza gəldilər. Onların üzündə gərginlik və narahatlıq hiss olunurdu. Gecə saat 24 radələrində güllə səsləri eşidildi. Bir azdan xəstəxanaya öz maşını ilə bir nəfər yaralı gəldi və bildirdi ki, onu evinə gedərkən atəşə tutublar. Yaralını əməliyyat otağına aparıb, yaralarını yenicə sarımışdıq ki, qəbul şöbəsinə çoxlu yaralı gətirməyə başladılar. Hətta bir UAZ markalı maşına meyitləri və yaralıları üst-üstə yığıb gətirmişdilər. Biz ölənləri morqa göndərdik, yaralılar isə aldıqları xəsarətə görə qruplaşdırıb əməliyyat etdik. Samir adlı bir yaralını mən özüm əməliyyat etdim. O, döş və qarın nahiyəsindən çoxlu güllə yarası almışdı. Belə güllələnənlər çox idi. Biz həkimlər günlərlə gecə-gündüz bilməyib çalışdıq və bir çox yaralıların yenidən həyata qayıtmasına nail olduq.

**Elçin Mehtiyev:** - O vaxt mən 1 saylı Klinik Xəstəxanada üz və çənə üzrə Cərrahiyyə şöbəsində həkim işləyirdim. Axşam şöbəyə 8 nəfər yaralı gətirdilər. Mən onların ikisinin əməliyyatında iştirak etdim. Yaralılardan birinin sifətini güllə deşərək çənəsində ilişib qalmışdı. Biz onun çənəsindən gülləni çox çətinliklə çıxardıq. Digər bir nəfəri əsgərlər elə vəhşicəsinə döymüşdülər ki, onun sifəti tanınmaz hala düşmüş, alt çənə sümüyü sınmış və döş qəfəsi əzilmişdi. Xəstə zarıyır və güclə nəfəs alırdı. Onu əməliyyat edəndə işıqlar söndü. Lampa işığında çox çətinliklə işimizə davam etdik. 21 yanvar 1990-cı il tarixdə "Azərbaycanın səsi" radiosuna müsahibə verdim və sovet ordusunun xalqımıza qarşı törətdiyi bu qanlı cinayətdən danışdım.

Qanlı Yanvar günü XX əsrdə Azərbaycan xalqının qüdrətli azadlıq mücadiləsi, tariximizin parlaq qəhrəmanlıq səhifəsidir. Ulu öndərin həmin əzmli mübarizəyə verdiyi qiymət hər kəsi qürurlandırır və bu tarixi hadisəni nəsildən-nəslə ötürməyə xidmət edir: "Biz fəxr edirik ki, azadlıq uğrunda özünü qurban etmiş şəhidlərimiz var, onların qəhrəmanlığı, onların ruhu bizim qəlbimizdə daim yaşayacaqdır!

**Kamil İSMAYILOV,**
**"Respublika".**

# Cənubi Koreya qəzetlərində qanlı Yanvardan bəhs edən məqalələr dərc olunub

**Koreya Respublikasının nüfuzlu "The Korea Times" və "The Korea Herald" qəzetləri 1990-cı ildə Bakıda baş verən Yanvar hadisələrindən bəhs edən məqalələr yayıblar.**

AZƏRTAC xəbər verir ki, "Azərbaycan müstəqillik mübarizəsində ölənləri yad edir" və "Azərbaycan 1990-cı il qanlı Yanvar şəhidlərini xatırlayır" adlı məqalələrdə keçmiş sovet dövlətinin o vaxtkı rəhbəri Mixail Qorbaçovun əmri ilə azadlıq və suverenlik uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqının istəyini boğmaq üçün törədilən cinayətkar əməllərdən bəhs edilir. Bildirilir ki, 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Bakıya yeridilmiş sovet qoşun birləşmələrinin törətdikləri qətllər zamanı uşaqlar, qadınlar, yaşlı insanlar daxil olmaqla, 147 mülki vətəndaş öldürülüb, 5 nəfər itkin düşüb, təxminən 800 nəfər yaralanıb, bir o qədərə sakin qanunsuz həbs edilib.




Koreya qəzetləri yazır ki, sovet qoşunlarının həmin əməliyyatı bir çox beynəlxalq konvensiya və sənədin tələblərini pozub.

Yazılarda həmin qanlı hadisələrin Azərbaycan xalqının azadlıq arzusunu boğa bilmədiyi, 1991-ci ilin oktyabrında Azərbaycanın öz müstəqilliyini bərpa etdiyi vurğulanır. Bildirilir ki, o vaxtdan bəri Azərbaycan xalqı hər il yanvarın 20-də azadlıq və müstəqillik yolunda qurban gedənlərin xatirəsini ehtiramla yad edir.

**AZƏRTAC**

# Mədəniyyət ocaqlarında 20 Yanvar faciəsinin ildönümü müxtəlif tədbirlərlə qeyd olunacaq

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq olunub. Sənədə əsasən, respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarda 20 Yanvara həsr olunmuş müxtəlif tədbirlər təşkil edilir.**

Ölkəmizin teatr, kino və konsert müəssisələrində, bədii təhsil ocaqlarında, kitabxana və sərgi salonlarında 20 Yanvarın ildönümü münasibətilə tamaşalar, musiqi gecələri, sərgilər və s. tədbirlər təşkil olunacaq.

Yanvarın 19-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında görkəmli bəstəkar, Xalq artisti F.Əlizadənin Qanlı Yanvara həsr olunmuş "İntizar" operası, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında yazıçı-dramaturq H.Mirələmovun "Xəcalət" tamaşası göstəriləcək, Xalq yazıçısı, görkəmli dramaturq İ.Əfəndiyevin "Hökmdar və qızı" əsəri əsasında hazırlanan "Qarabağnamə" tamaşası isə 20 Yanvar tarixində nümayiş olunacaq.

Dövlət Yuğ Teatrında (A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının səhnəsi) 18-19 yanvar tarixlərində G.Dumbadzenin "Məhşər günü" tamaşası göstəriləcək.

Yanvarın 19-da Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında yazıçı-dramaturq T.Vəliyevanın "Mənim ağ göyərçinim" və D.Mustafayevin "Əlincə qalası" tamaşaları oynanılacaq.

Yanvarın 19-da M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında 20 Yanvar faciəsi qurbanlarının xatirəsinə həsr olunmuş tədbir keçiriləcək. Anım gecəsində Xalq artisti Rauf Abdullayevin dirijorluğu ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında V.A.Motsartın "Rekviyem" əsəri səslənəcək.

Yanvarın 17-də Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə Qara Yanvara həsr olunmuş "Azadlıq aşiqləri" rəsm müsabiqəsinin yekun sərgisi keçiriləcək.

Mədəniyyət Nazirliyinin və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin birgə təşkilatçılığı ilə yanvarın 14-dən 18-dək "Vətənpərvərlik kinosu həftəsi" çərçivəsində Milli Qəhrəmanlara həsr olunmuş filmlər nümayiş olunacaq.

Yanvarın 21-də Nizami Kino Mərkəzində rejissor Nizami Abbasın "Salnaməfilm" studiyasında çəkdiyi "Unutma" sənədli filminin təqdimatı olacaq.

18 yanvar tarixində Bakı Xoreoqrafiya Akademiyasının Təhsil Kompleksində birinci dərs 20 Yanvar faciəsinə həsr ediləcək, ədəbi-bədii kompozisiya nümayiş olunacaq.

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində yanvarın 19-da Qanlı Yanvarın ildönümü münasibətilə rəsm sərgisi və ədəbi-bədii kompozisiya təşkil ediləcək.

Yanvarın 17-də Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzində "20 Yanvarı unutmadıq" mövzusunda sərgi açılacaq və dəyirmi masa keçiriləcək.

Yanvarın 17-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında "20 Yanvar ümumxalq hüzn və qürur günüdür" mövzusunda kitab sərgisi və film nümayişi olunacaq.

14-19 yanvar tarixlərində F.Köçərli adına Respublika Uşaq Kitabxanasında və filiallarında 20 Yanvar faciəsinin ildönümü münasibətilə "Tarix unutmayır qəhrəmanları", "Həqiqət uğrunda ölümlərilə, Ölümü kamına çəkdi şəhidlər", "And yerimiz - Şəhidlər xiyabanı", "Azadlığa gedən yolun zirvəsi" və s. mövzularda anım tədbirləri, sərgilər, təqdimatlar keçiriləcək.

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında oxucularla 20 Yanvar faciəsi mövzusunda söhbət-mühazirə (16 yanvar) təşkil olunacaq. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə şəhid olmuş vətən övladlarının ailə üzvləri ilə görüşlər təşkil ediləcək (17 yanvar).

Yanvarın 18-də Respublika Gözdən Əlillər Kitabxanasının oxu zalında Qanlı Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümünə həsr olunmuş anım tədbiri təşkil olunacaq.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə paytaxtda fəaliyyət göstərən mədəniyyət müəssisələrində, Regional Mədəniyyət İdarələri tərəfindən isə respublikamızın bölgələrində yerləşən mədəniyyət müəssisələrində faciənin ildönümü ilə bağlı çoxsaylı tədbirlər keçirilməkdədir.

**Mədəniyyət Nazirliyinin İnformasiya və İctimaiyyətlə Əlaqələr şöbəsi.**

# "İşsizin DOSTu"

## *Bu proqram üzrə ictimai işlərə cəlb olunan şəxslərlə əmək müqaviləsi bağlanacaq*



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü əsasında hazırlanmış "İşsizin DOSTu" proqramının icrasına hazırlıq işləri artıq başa çatır. Proqram Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST Agentliyinin) "DOST İş Mərkəzi" tərəfindən icra olunacaq. Bununla bağlı Mərkəzin rayon filiallarının qurulması işləri də yekunlaşmaq üzrədir.**

Bu barədə nazirlikdən verilən məlumata görə, haqqı ödənilən ictimai işlərin təşkilinin sistemli və şəffaf şəkildə həyata keçirilməsi və genişləndirilməsi məqsədinə xidmət edən "İşsizin DOSTu" proqramı bu il ərzində 30 minədək şəxsin ödənişli ictimai işlərə cəlb edilməsinə imkan verəcək. Həmin şəxslər Nazirliyin rayon (şəhər) Məşğulluq mərkəzlərində işaxtaran və ya işsiz kimi qeydiyyatda olan şəxslərdən ibarət olacaq. Ödənişli ictimai işlərə cəlb edilərkən həmin şəxslərin hər biri ilə əmək müqaviləsi bağlanacaq. Bu da onların sosial sığorta sistemi ilə əhatə olunmasına, nəticədə gələcək pensiya hüquqlarının yaranmasına və ya mövcud olan fərdi hesablarında pensiya kapitalının artımına imkan verəcək.

Proqramın iştirakçılarının yerinə yetirəcəkləri ictimai işlərin (sosial xidmətlərin göstərilməsi, təmir, abadlaşdırma, ərazilərin ekoloji sağlamlaşdırılması, o cümlədən yaşıllaşdırma işləri, parklara, ictimai yerlərə qulluq və s.) həcminə, əmək funksiyalarına uyğun olaraq əməkhaqları müəyyən olunacaq. Digər tərəfdən, Proqram cari ildə əlavə 30 minədək əmək müqaviləsi bağlanmasına imkan verəcək.

**M.MUSTAFAYEV,**
**"Respublika".**

# GƏNCƏ DÖVLƏT UNİVERSİTETİNDƏ BU İL TƏLƏBƏ ŞƏHƏRCİYİ İSTİFADƏYƏ VERİLƏCƏK

Artıq Gəncə Dövlət Universitetində məskunlaşmış qaçqın və köçkünlər də evlə təmin olunmuş, yataqxana boşaldılmışdır. Yataqxananın bərpası və əsaslı təmiri ilə bağlı universitetin rektoru, professor Yusif Yusibov müsahibəsində bildirmişdir ki, şəhərin Dədə Qorqud küçəsində Universitetin tələbə şəhərciyində yerləşən hər üç yataqxana binası 1967-ci ildə istifadəyə verilib. Cavad Rəfibəyli ünvanında yerləşən yataqxana binası isə 1972-ci ildə tikilib. Yataqxanalar istifadəyə verildiyi vaxtdan bəri heç vaxt əsaslı təmir aparılmayıb. Bununla belə, həmin yataqxanalarda 1993-cü ildən etibarən Kəlbəcərdən olan məcburi köçkün ailələri məskunlaşıblar. Qaçqın və məcburi köçkünlərin sosial həyat şəraitinin yaxşılaşdırılması istiqamətində dövlətimizin gördüyü işlər çərçivəsində Gəncə şəhərində Kəlbəcərdən olan məcburi köçkünlər üçün yeni qəsəbə salınıb və universitetin yataqxanasında məskunlaşmış ailələrin yeni evlərə köçürülməsi təmin edilib. İndi bizim qarşımızda duran əsas vəzifə həmin binaları əsaslı təmir edərək tələbələrimizin ixtiyarına verməkdir. Bu vaxta qədər tələbələrimizin dərsdən sonrakı asudə vaxtlarını səmərəli təşkil edilməsi mümkünsüz idi. Həmçinin, universitetin tələbə yataqxanasının olmaması dünyanın bir sıra qabaqcıl universitetləri ilə bağlanmış müqavilələrimizi bütün bəndlər üzrə həyata keçirməyə mane olurdu. Hazırda ərazidə planlama və söküntü işləri aparılır. Bir neçə gündən sonra isə binaların əsaslı təmirinə başlanılacaqdır. Tələbə şəhərciyində bütün infrastruktur yenilənəcək və ümumilikdə 320 otaq yenidən qurulacaqdır. Tələbələrin rahatlığı üçün hər cür şərait yaradılacaq, istilik və su sistemləri, eləcə də yanğın təhlükəsizliyi sistemi qurulacaq, yaşayış və məişət otaqları zəruri avadanlıqlarla təchiz olunacaq. Şəhərcikdə kitabxana, oxu və idman zalları, tibb məntəqəsi və yeməkxana, gənclər üçün idman meydançası və istirahət məkanları yaradılacaqdır. Cavad Rəfibəyli küçəsində yerləşən yataqxana binası isə Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) dəstəyi ilə yenidən qurulacaqdır. Bu yataqxanada 101 otaq müasir səviyyədə yaradılacaqdır. Beləliklə də bu ilin sonunadək əsaslı təmir edilmiş, ümumilikdə 421 otaqdan ibarət yataqxana binaları və tələbə şəhərciyi universitetin tələbələrinin istifadəsinə veriləcək.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# BMU-da "Kreativlik və tənqidi düşüncə" adlı tədbir

"Gələcəyini Qur!" Gəncliyə Dəstək layihəsi tərəfindən Bakı Mühəndislik Universitetində "Kreativlik və tənqidi düşüncə" mövzusunda tədbir keçirilib. Layihənin rəhbəri Bəhruz Hidayətzadə çıxış edərək keçirilən tədbirlərin əsas məqsədinin gənclərin ali təhsilə yiyələnməsinə dəstək və töhfə vermək, bununla da Azərbaycan cəmiyyətinə yüksək intellektual və etik dəyərlərə malik sağlam düşüncəli gənclər qazandırmaq olduğunu qeyd edib. Layihənin Bakı (Binəqədi, Qaradağ, Sabunçu, Suraxanı, Xətai) və respublikamızın beş rayonu (Ağdaş, Kürdəmir, Salyan, Ucar, Yevlax) əhatə etdiyini qeyd edən B.Hidayətzadə, tədbirdə Bakı şəhəri və rayonlardan orta məktəblərdə təhsil alan 150-dən çox 11-ci sinif şagirdinin iştirak etdiyini bildirib.

Tədbirdə Coşqun Kərimov, BMU-nun prorektoru Yavər Məmmədov, BMU Texnoparkının direktor müavini İsa Qasımov, İnteraktiv Elm Muzeyinin təsisçisi Elçin Abbasov, Prosper şirkətinin direktoru Vüqar Səfərov və BMU-nun riyaziyyat və informatika kafedrasının baş müəllimi Bəhman Məmmədov çıxış ediblər.

BMU-nun Maliyyə-təsərrüfat işləri üzrə prorektoru Yavər Məmmədov zəhmətkeşliyin və özünəinamın insanın karyerasının qurulmasına təsirindən, daxili yaradıcılıq hissindən intişar edərək kreativ ideyaların meydana gəlməsindən bəhs edib. Bildirib ki, hansı sahədə karyera qurmaqdan asılı olmayaraq, hər kəs xalqının mədəniyyətini və milli dəyərlərini öz işində əks etdirməlidir. O, bu mövzuda öz karyerasından və gördüyü işlərdən nümunələr göstərib.

Tədbirdə məruzə ilə çıxış edən BMU-nun əməkdaşı Adil Vəliyev layihə iştirakçıları olan abituriyentlərə universitet haqqında geniş məlumat verib, onların suallarını cavablandırıb.

Sonda iştirakçılar BMU-nun təqdimat videosunu izləyiblər.

**M.MİRZƏ,**
**"Respublika".**

# Heç bir ölkədə son on beş il ərzində iqtisadiyyat Azərbaycandakı qədər artmamışdır

## Dövlət başçısı deyib: “Mənim bir amalım var: güclü Azərbaycan dövləti qurmaq və xalqa ləyaqətlə xidmət etmək”

(əvvəli 4-cü səhifədə)

Ümummilli lider Heydər Əliyevin neft strategiyasının Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi və ondan gələn gəlirlə qeyri-neft sektorunda zəruri nəhəng layihələrin reallaşdırılması nəticəsində ölkə iqtisadiyyatında çoxşaxəliliyə nail olunmuş, qarşıya qoyulmuş hədəflərə çatılmış, nəticədə sürətli inkişafın dinamizmi qorunmuşdur. Reallıqdır ki, heç bir başqa ölkədə son on beş il ərzində iqtisadiyyat bu qədər artmamışdır. Əlbəttə ki, sabitlik və düşünülmüş siyasət sosial-iqtisadi sahədə inkişafa da gözəl şərait yaratmışdır. Azərbaycanda aparılan iqtisadi islahatlar siyasi islahatlarla tamamlanır. Həmin iki istiqamət arasında uzlaşma yaradılır. Bu da müvəffəqiyyətin əsas səbəblərindən biridir.

Ölkəmizdəki milli birlik zəminində regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasının ölkənin tərəqqisində əhəmiyyəti çox böyükdür. Birinci Proqramın icrası ölkə regionlarında böyük dönüş yaratmışdır. Bir göstəriciyə diqqət yetirək. Əgər 2004-cü ildə valyuta ehtiyatlarımız 1,8 milyard dollar idisə 2014-cü ildə bu rəqəm 23 dəfə artıb. Hazırda isə valyuta ehtiyatlarımız ölkəmizin Ümumi Daxili Məhsuluna bərabərdir. Ölkəmiz 45 milyard dollar məbləğində valyuta ehtiyatına malikdir və ötən il 3 milyard dollar artıma nail olunmuşdur. Xarici borc 22,8 faizdən 19 faizə enmişdir. Dövlət istənilən vaxt bu borcu ödəmək iqtidarındadır. Azərbaycanın bu maliyyə gücü həm böyük milli sərvət, eyni zamanda, iqtisadi müstəqilliyin təminidir. İqtisadi müstəqillik olmadan isə siyasi müstəqilliyə nail olmaq mümkün deyildir. Bu gün iqtisadiyyatın şaxələndirilməsi, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, özünütəminat səviyyəsinin yüksəldilməsi, məşğulluğun təmin olunması, qeyri-neft məhsullarının ixracının artırılması, idxaldan asılılığın azaldılması və digər strateji vəzifələrin həllində özəl sektor həlledici rola malikdir. Azərbaycan Prezidenti aparılan islahatların səmərəliliyinə beynəlxalq qurumların da yüksək qiymət verdiklərini və ölkəyə sərmayə cəlbediciliyinin qorunduğunu diqqətə çatdırıb: “Deyə bilərəm ki, beynəlxalq təşkilatlar, aparıcı maliyyə qurumları Azərbaycanda gedən prosesləri çox böyük maraqla izləyirlər və bizim işimizə çox yüksək qiymət verirlər. Mən xüsusi qeyd etməliyəm ki, Dünya Bankının “Doing Business” hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerdədir. İl ərzində biz 32 pillə irəliyə getmişik. Hesab edirəm ki, bu, rekord göstəricidir. Biznesi aparmaq üçün yaradılan şəraitə görə dünya miqyasında 25-ci yerdə olmaq böyük nailiyyətdir. Ölkə iqtisadiyyatına keçən il 17,2 milyard manat sərmayə qoyulub. Çox böyük rəqəmdir və ən sevindirici hal ondan ibarətdir ki, bu sərmayənin 11 milyard manatı, ondan da çoxu ölkəmizin qeyri-neft sektoruna qoyulan sərmayədir. Yəni, bu, onu göstərir ki, Azərbaycan sərmayə qoyuluşu üçün çox cəlbedici ölkədir. Dünya Bankının son hesabatında bizim 25-ci yerə qalxmağımız hesab edirəm ki, sərmayə qoymaq istəyənləri daha da həvəsləndirəcək və ölkəmizə daha çox sərmayə qoyulacaqdır”.

Azərbaycan bazar iqtisadiyyatı formasiyasına keçib. Buna görə də dövlət özəl sektorun inkişafına siyasi, hüquqi və maddi dəstək verir, qarşıya çıxan əngəlləri operativ surətdə qaldırır. Ən fərəhli hal budur ki, dünyanı bürüyən qlobal böhran siyasi uzaqgörənlik, proqnozlaşdırılan strategiya nəticəsində dövlətimizdən yan keçmişdir. Bu da Azərbaycan kimi çox da böyük olmayan bir ölkə üçün inkişafda irəli sıçrayışdır. İndi artıq Ümumi Daxili Məhsulun 85 faizi özəl sektorun payına düşür.

Ölkənin daxili və xarici siyasəti iqtisadi inkişafa yol açmalı, inkişafını dəstəkləməlidir. Azərbaycanda bu iki sahədə vaxtında atılan addımlar, icra olunan bütün layihə və islahatlar bir-birini tamamlayır. Sürətli və davamlı inkişafa nail olmaq üçün bu sahədə ən mütərəqqi təcrübəni öyrənərək tətbiq etmək məqsədilə Azərbaycan beynəlxalq qurum və təşkilatlarla da sıx, səmərəli əməkdaşlıq edir, öhdəsinə düşən öhdəlikləri də daim əməl edir. Gedən inkişafa diqqət yetirəndə hər bir sahədəki islahatların ölçülüb-biçildiyini, bir-birini tamamladığının şahidi oluruq. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində əsas amalının güclü Azərbaycan dövləti qurmaq və xalqa ləyaqətlə xidmət etmək olduğu barədə vurğulayıb: “Mən son 15 il ərzində Prezident kimi çalışmışam ki, xalqa ləyaqətlə xidmət edim. Bundan sonra da çalışacağam ki, Azərbaycanın inkişafı, Azərbaycanın gücləndirilməsi, xalqın rifahının artması üçün əlimdən gələni əsirgəməyim. Mənim bir amalım var: güclü Azərbaycan dövləti qurmaq və xalqa ləyaqətlə xidmət etmək”.

**Ataş CƏBRAYILOV,**
**“Respublika”.**

# ADAU-da ŞƏFFAFLIQ VƏ OBYEKTİVLİK BAŞLICA MEYARDIR





Azərbaycan Dövlət Aqrar Universitetində 2018/2019-cu tədris ilinin payız semestrinin imtahan sessiyası müvəffəqiyyətlə davam edir. Ümumilikdə 4.500 tələbənin biliyinin yoxlanacağı imtahan sessiyası fevralın 1-dək davam edəcək. Hələ imtahan ərəfəsində, universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov tələbələrlə görüşmüş, onları maraqlandıran suallara aydınlıq gətirmiş və müvafiq əmr imzalamışdır. Universitet rektorunun imzaladığı əmrlə “Qaynar xətt” yaradılmış və əlaqə telefonu, e-mail ünvanı qeyd edilmiş, imtahanların cavablarını kodlaşdırmaq üçün qrup yaradılmışdır. İmtahanlarda verilən qiymətlərə etiraz edən tələbələrin müraciətlərinə baxılması üçün bakalavriat və magistratura səviyyələrində apellyasiya komissiyaları təşkil edilmişdir. Kütləvi informasiya vasitələri nümayəndələrinə və valideynlərə imtahanlarda iştirak etmək üçün şərait yaradılmış, imtahan fənləri üzrə mütəxəssis olmayan şəxslərdən ibarət xüsusi nəzarətçilər qrupu və imtahan rəhbəri təsdiq edilmişdir. Rektorun əmrinə müvafiq olaraq tədris işləri üzrə prorektorun sədrliyi ilə sessiyanın gedişində daxil olan müraciətlərin operativ şəkildə araşdırılmasını təmin etmək məqsədilə qərargah yaradılıb. Bütün bunların nəticəsidir ki, hazırda imtahanlar yüksək səviyyədə gedir, gün ərzində tələbənin biliyi qiymətləndirilir. Universitetin tədris işləri üzrə prorektoru Anar Hətəmov mediatur iştirakçılarına hər il infrastrukturun yenilənməsi, maddi-texniki bazanın zənginləşdirilməsi istiqamətində aparılan işlər, eləcə də ali təhsil müəssisəsində yaradılan idarəetmə, tədris və imtahan prosesi və sair məlumat verdi. İmtahan prosesini müşahidə etmək üçün, Azərbaycan Dövlət Aqrar Universitetinin mühəndislik fakültəsinin tədris korpusunda imtahan auditoriyasında olduq. Elektron test üzrə imtahan rəhbəri dosent Səbuhi Məmmədov imtahan gedişi və qaydaları haqqında bizi məlumatlandırdı. Heç kəs bir-birinə müdaxilə etmədən öz biliyini nümayiş etdirmək üçün real imkandan istifadə edir, oxuduqlarını və müəllimlərinin tövsiyələrini xatırlamağa çalışırdılar. Qeyri-ixtisas sahibləri olan imtahan nəzarətçiləri Ülviyyə Hüseynova, Kəmalə Sadıqova və Gülşən Nəsibova öhdələrinə düşən vəzifəni vicdanla yerinə yetirirdilər. Elə yenicə imtahan audiotoriyasından çıxan baytarlıq fakültəsinin I kurs tələbəsi Baba Vəliyevlə və əczaçılıq fakültəsinin I kurs tələbəsi Səbinə Nəbiyeva ilə, zootexnik ixtisası üzrə I kurs tələbəsi Nərgiz Rəcəbova ilə söhbət yerinə düşdü. Onlar birmənalı bildirdilər ki, imtahanların kompüter vasitəsilə verilməsini bütün tələbələr alqışlayırlar, çünki burada neqativ hal qeyri mümkündür. Yaradılan şəraitə, şəffaflığa və obyektivliyə görə universitet rəhbərliyinə minnətdarlıq etdilər, onların hər biri ən yüksək bal topladıqlarından çox məmnun idilər. Tələbələrin, valideynlərin söylədiklərindən və gördüklərimizdən belə qərara gəldik ki, zəngin ənənələrə malik qocaman universitetdə, imtahan gedişində yaradılmış şərait imtahanların obyektiv, şəffaf keçirilməsinə imkan verir.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**

“ASK ŞÜŞƏ” MMC tərəfindən xammalın satınalınması üçün 12.12.2018-ci il tarixində elan edilmiş açıq tenderə üzrə ilkin sənədlərin qəbul tarixi 25 yanvar 2019-cu il saat 17:00-dək, tenderə təkliflərin və təkliflərin təminatı sənədlərinin qəbulu isə 04 fevral 2019-cu il saat 17:00-dək uzadılır. Sənədlər möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla təqdim olunmalıdır.

Təklif zərflərinin açılışı polietilen, taxta altlıq, dolomit üzrə 2019-02-05 saat 11:00 tarixində, natrium sulfat, karton, çöl şpatı üzrə 2019-02-06 saat 11:00 tarixində, kvars qumu, mel-təbaşir üzrə 2019-02-07 saat 11:00 tarixində Bakı şəhəri, Qaradağ rayonu, Sahil qəsəbəsi, Salyan şosesi, 25-ci km ünvanında keçiriləcəkdir.

Mingəçevir Şəhər Liftlərin Quraşdırılması, Təmiri və Xidməti İdarəsi 2019-cu il üçün mal-materialları (liftlərin ehtiyat hissələri) satınalınmasını kotirovka sorğusu üsulu ilə həyata keçirir.

**Ünvan:** *Mingəçevir şəhəri, N.Rəfibəyli 13/1.*

**Tender Komissiyası.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Açıq tenderə dəvət edir:
Tender 1 lot üzrə keçirilir:
Lot 1 - “Bərpanəşr” layihəsi çərçivəsində ölkədə cəmi bir nüsxə qalmış nadir nəşrlərin bərpası və çapı, latın qrafikasında işıq üzü görməyən, raritet uşaq kitablarının illüstrasiyalı, yüksək keyfiyyətli nəşri, görkəmli mədəniyyət xadimlərinin portretlərinin toplanması, hazırlanması, çapı və digər poliqrafiya işlərinin icrası

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 84, Hökumət Evi (Əlaqələndirici şəxs: Aslan Cəfərov, telefon: 012-493-30-05) ünvanından ala bilərlər.

İştirak haqqı:
Lot 1 - 200 manat
Hesab: AZ78CTRE00000000000002178501
VÖEN: 1700015381
Bank: Dövlət Xəzinədarlığı Agentliyi
Kod: 210005
VÖEN: 1401555071
M/h: AZ41NABZO13601000000000003944
S.W.İ.F.T.: CTREAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
10. Digər sənədlər: son 3 ildə (illər üzrə) görülmüş nəşr işləri və onun ümumi dəyəri haqqında məlumat; İddiaçının son bir illik iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr, həmçinin bu məlumatları əldə etmək məqsədi ilə müraciət edilə biləcək şəxslərin adı, telefonu; Nəşr məhsullarının hazırlanması və çapı üzrə analoji iş təcrübəsi barədə məlumat; yekun müqaviləsinin yerinə yetirilməsində istifadə ediləcək əsas çap avadanlıqları haqqında məlumat; yekun Müqaviləsinin yerinə yetirilməsinə əsas rəhbərlik edən və texniki işləri yerinə yetirəcək işçilərin ixtisası və təcrübələri haqqında məlumat; Dövlət Sosial Müdafiə Fonduna verilmiş hesabatın surəti və Dövlət Sosial Müdafiə Fondunun arayışı, Məhkəmə araşdırmalarına cəlb olunub olunmaması barədə məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 2019-02-20 18:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 2019-02-27 18:00 qədər Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 84, Hökumət Evi ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 2019-02-28 11:00 tarixində Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 84, Hökumət Evi ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

TENDER KOMİSSİYASI.

# DÜNYA BUGÜN

FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR

## TÜRKİYƏDƏN TRAMPA CAVAB: BİZ HEÇ BİR TƏHDİDDƏN ÇƏKİNMİRİK



ABŞ Prezidenti Donald Trampın açıqlamaları strateji tərəfdaşlığa uyğun deyil. “Trend” agentliyinin məlumatına görə, bunu Donald Trampın açıqlamalarına cavab olaraq Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bəyan edib.

Verilən xəbərə görə, ABŞ prezidenti bu ərəfədə bildirib ki, Ankara Suriya kürdlərinə qarşı hücum edəcəyi halda Türkiyəyə qarşı iqtisadi sanksiyalar tətbiq edilə bilər.

Türkiyənin XİN başçısı bildirib ki, strateji tərəfdaşlıq məsələləri sosial şəbəkələrin müzakirə mövzusu deyil. Nazir deyib: “Biz görürük ki, Trampa Suriyadan qoşunların çıxarılmasısı ilə bağlı təzyiqlər olunur və o, çətin vəziyyətdədir. Bununla belə, bu məsələlər sosial şəbəkələrdə müzakirə olunmamalıdır”.

Eyni zamanda, Mövlud Çavuşoğlu əlavə edib ki, Türkiyə heç bir təhdiddən çəkinmir: “Biz ac, susuz da qalsaq, lazım olan addımları atacağıq. ABŞ və digər ölkələr Türkiyəyə hörmətlə yanaşmalıdır”.

Bununla yanaşı, Türkiyə prezidentinin mətbuat katibi İbrahim Kalın ABŞ prezidenti Donald Trampın kürdlərlə bağlı Türkiyəni təhdid etməsinə cavab olaraq bildirib ki, Türkiyə kürdlərə yox, terrorçulara mübarizə aparır. İbrahim Kalın qeyd edib ki, Suriya kürdlərini ABŞ-ın da terror təşkilatları siyahısında olan PKK ilə eyniləşdirmək böyük səhvdir.

Məlumat üçün qeyd edək ki, Donald Tramp “Twitter” səhifəsində Türkiyənin Suriya kürdlərinə zərbə endirəcəyi təqdirdə bu ölkənin iqtisadiyyatını çökdürəcəyini bəyan edib. Tramp həmçinin kürdləri Türkiyəni təxribata sürükləməməyə çağırıb.

## EMMANUEL MAKRON FRANSA İCTİMAİYYƏTİNƏ MÜRACİƏT EDİB



Fransa prezidenti Emmanuel Makron “sarı jiletlilər”in zorakılığa səbəb olan nümayişləri ilə əlaqədar ölkə ictimaiyyətinə açıq məktubla müraciət edib. “TRT” telekanalının məlumatına görə, məktubunda ölkədə bəzi vətəndaşların yüksək vergilərdən, aşağı maaşlardan, ictimai xidmətlərin kifayət qədər olmamasından yaranan qəzəblərini başa düşdüyünü bildirən Makron yalnız Fransada deyil, həmçinin Avropada insanların rifahının aşağı səviyyədə olduqlarını, bu səbəbdən problemlərin həll yollarının tapılmasının vacib olduğunu vurğulayıb.

Ölkənin seçilmiş insanlarının təhqir olunmasını, jurnalistlərin günahlandırılmasını, rəsmi qurumlara hücum edilməsini qəbul etməyəcəyini qeyd edən Fransa prezidenti “sarı jiletlilər”in etiraz aksiyaları nəticəsində yaranan problemlərin həll edilməsi üçün martın 15-nə qədər ictimaiyyətlə ölkə miqyasında müzakirələr aparılacağını bildirib.

Emmanuel Makron fransızların bu yolla ölkədəki problemlərlə bağlı fikirlərini bildirə və təkliflərini verə biləcəklərini qeyd edib.

Prezident işsizliklə mübarizənin onun üçün prioritet məsələ olduğunu, ədalətsizliyin qarşısının alınması üçün yeni sosial sistemin yaradılmasının vacibliyinə diqqət çəkib.

Bununla yanaşı, Emmanuel Makron vergi sistemi, dövlət xərcləri, dövlətin və aidiyyəti qurumların fəaliyyətləri, iqlim dəyişikliyi və demokratiya məsələlərinin müzakirə olunacağını da qeyd edib.

Qeyd edək ki, Fransada yanacağın qiymətinin bahalaşmasına və iqtisadi şərtlərin ağırlaşmasına reaksiya olaraq 17 noyabr 2018-ci ildə başlayan aksiyalar ölkədə son illərin ən şiddətli etirazları hesab olunur.

Aksiyalarda 10 nəfər həlak olub və 1700-dən çox insan yaralanıb, 5600 aksiyaçı nəzarətə götürülüb, mindən çoxu barəsində həbs qətimkan tədbiri seçilib.

## ALİMLƏR: KAİNATIN ƏKİZİ VAR VƏ ORADA VAXT ƏKS İSTİQAMƏTDƏ GEDİR



Kainatımız Böyük Partlayışın baş verdiyi andan tərs istiqamətdə hərəkət edən və anti-materiyadan qurulan paralel dünyanın bir “güzgüsü” ola bilər. Bu barədə “BBC” agentliyi xəbər verib.

Kanadanın Nəzəri Fizika İnstitutu alimlərinin təklif etdiyi bu inqilabi nəzəriyyə fantastik görünsə də, müasir elmdə izahı tapılmayan bir neçə paradoksu həll etməyə imkan verir.

Yeni modelə görə Böyük Partlayış zamanı iki “simmetrik” kainat əmələ gəlib. Biri - bizim yaşadığımız kainatdır, burada vaxt gələcəyə doğru axır, “güzgü təsviri” olan digər kainatda isə vaxt geriyə, yəni keçmişə doğru hərəkət edir. Başqa sözlə, biz gələcəyə, əkiz kainat isə keçmişə doğru irəliləyir.

Kanadalı alimlər yeni nəzəriyyənin bir çox detallarını hələ dəqiqləşdirməlidirlər, buna baxmayaraq, onların hesablamalarından hansısa bir ciddi ziddiyyət aşkar edilməyib. Onların məqaləsi artıq Amerika Fizika Cəmiyyətinin elmi jurnalında dərc olunub.

Hazırda qüvvədə olan nəzəriyyəyə əsasən, kainatımız Böyük Partlayış nəticəsində yaranıb və o andan artıq 14 milyard ildir ki, genişlənməkdə və soyumaqda davam edir.

Ancaq bu nəzəriyyələrdən heç biri, məsələn, kainatın görünən hissəsində maddənin bu dərəcədə çox, anti-maddənin isə bu qədər az olduğunu izah edə bilmir. Lakin, nəzəri cəhətdən onlar bərabər miqdarda olmalıdır.

Kanadalı alimlərin təklif etdiyi izahat isə daha sadədir və mövcud nəzəriyyələri pozmadan bütün müşahidə olunan hadisələri izah etməyə imkan verir.

Yeni modeldə Böyük Partlayış baş verən an simmetriya nöqtəsi sayılır və həmin nöqtəyə nisbətən kainat və anti-kainat zaman məkanında əks istiqamətə hərəkət edir.

Alimlər qeyd edirlər ki, anti-kainat bizim kainata çox oxşasa da, kvant qeyri-müəyyənliyi prinsipinə uyğun olaraq, birə-bir surəti deyil.

Bu haşiyə fiziklərı mürəkkəb fəlsəfi suallardan—məsələn, iradə azadlığı ilə bağlı sualdan xilas etmiş olur. Belə olmasa, onda paralel kainatda baş verən hadisələr bizim kainatımızda təkrar olmalı, yəni, kainatımızda baş verənlər isə paralel kainatda öz əksini tapmalıdır.

## SƏUDİYYƏ ƏRƏBİSTANI VƏ ABŞ YƏMƏNLƏ BAĞLI RAZILIĞA GƏLİBLƏR



ABŞ-ın dövlət katibi Mayk Pompeo ilə Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salman Əl-Səud Yəmənlə bağlı İsveçdə əldə olunmuş sülh sazişini yerinə yetirmək barədə razılığa gəliblər. “Report” informasiya agentliyinin verdiyi xəbərə görə, bu barədə ABŞ-ın Ər-Riyaddakı səfirliyi məlumat yayıb.

“Mayk Pompeo və vəliəhd şahzadə İsveçdə imzalanmış sülh sazişinə riayət etmək, Yəməndəki gərginliyi azaltmaq üçün səyləri davam etdirmək, Yəmən böhranının əhatəli siyasi həllinin zərurəti barədə razılığa gəliblər”, - deyə məlumatda bildirilir.

Eyni zamanda, qeyd edilir ki, dövlət katibi Yəməndə BMT himayəçiliyi ilə siyasi prosesə dəstək verdikləri üçün Səudiyyə Ərəbistanına təşəkkür edib.

Xatırladaq ki, Yaxın Şərq ölkələrində səfərdə olan Mayk Pompeo yanvarın 13-də Qətərdən Səudiyyə Ərəbistanına gələrək danışıqlar aparmış, yanvarın 14-də isə ailə üzvlərindən birinin vəfat etməsilə əlaqədar səfəri erkən başa vurub.

## İSRAİLLİ NAZİRDƏN FƏLƏSTİN LİDERİ İLƏ BAĞLI QALMAQALLI ÇAĞIRIŞ



İsrailin İctimai Təhlükəsizlik naziri Gilad Erdan Fələstin lideri Mahmud Abbasın yaxın zamanda növbəti dəfə xarici ölkəyə səfər edəcəyi təqdirdə İordan çayının qərb sahilinə buraxılmaması ilə bağlı çağırış edib. “TRT”nin məlumatına görə, bu barədə xəbəri İsrailin “KAN” telekanalı xəbər yayıb.

Nazir ölkə radiosuna verdiyi müsahibəsində İsrailin keçmişdə Fələstinin mərhum lideri Yasir Ərəfatın arzuolunmaz adam elan etdiyini xatırladaraq, eyni münasibətin Mahmud Abbasa da göstərilməli olduğunu bildirib.

Gilad Erdan Fələstinin dövlət başçısının sülh prosesinə heç bir töhfəsi olmadığını, İsrailə zərər verdiyi qənaətindədir.

“Abbas ölkədən uzaqlaşdırılmalıdırmı?” sualına cavab verən Gilad Erdan deyib: “Yalnız uzaqlaşdırılmalı deyil, hətta İsrailə qarşı siyasətini dəyişənə qədər ölkəyə girişinə imkan verilməməlidir”.

Nazirin fikrincə, Mahmud Abbas fələstinliləri dolayı və ya birbaşa yolla İsrailə qarşı qızışdıraraq Qəzza məsələsindəki gərginliyin əsas faktoru rolunu oynayır.

Eyni zamanda, Gilad Erdan İsrail ordusunun Qəzzadan gələn raketlərə cavab verməyə davam edəcəyini vurğulayaraq, genişmiqyaslı əməliyyatın “HƏMAS” təşkilatının mövqeyinə görə müəyyən olunacağını bildirib.

İsrailli nazirin bu açıqlamaları qeyri-qanunu məskunlaşdırılmış yəhudilərin Fələstin hökumətinin rəhbərinin öldürülməsinə dair çağırışlarından sonra vermesi diqqət çəkib.

Xatırladaq ki, İsrail ilə Fələstin arasındakı sülh danışıqları İsrailin 1967-ci il sərhədləri, məcburi köçə məruz qalan fələstinlilərin geri dönmə haqqı və yəhudi yaşayış məntəqələrinin inşasının dayandırılması ilə bağlı şərtləri qəbul etməməsi səbəbindən 2014-cü ilin aprel ayından dayandırılıb. ■

# Nazir Ramin Quluzadə Xızı şəhərində vətəndaşlarla görüşəcək

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə 18.01.2019-cu il tarixində saat 11:30-da Xızı şəhərində Xızı, Abşeron, Qubadlı, Zəngilan, Şuşa rayonlarının və Sumqayıt şəhərinin sakinlərinə göstərilən nəqliyyat, telekommunikasiya (o cümlədən, internet, televiziya və radio yayımı) və poçt xidmətlərinin keyfiyyəti, xidmət mədəniyyəti və bu sahədə bölgələrdə əhalini maraqlandıran digər məsələlərlə bağlı vətəndaşları qəbul edəcək.

Vətəndaşlardan "mincom@mincom.gov.az" elektron poçt ünvanı, 1655 "Çağrı Mərkəzi", 012 598 38 18 nömrəli telefon vasitəsi ilə (regionlardan edilən zənglər pulsuzdur) əlaqə saxlayıb qəbula yazılmaları xahiş olunur.

Eyni zamanda qəbula gəlmək istəyən vətəndaşlar, zərurət yaranarsa, yaşadıqları ərazinin poçt və telefon qovşaqları tərəfindən nəqliyyat vasitələri ilə təmin olunacaqlar. Bunun üçün:

| | |
|---|---|
| **Xızı rayonunda** | **023 3150100** |
| **Abşeron rayonunda** | **012 3423300** |
| **Qubadlı rayonu üzrə** | **018 6483392** |
| **Zəngilan rayonu üzrə** | **012 4326166** |
| **Şuşa rayonu üzrə** | **012 4584686** |
| **Sumqayıt şəhərində** | **018 6423500** |

nömrəli telefonlara zəng etmələri xahiş olunur.

## ASTARA RAYON İCRA HAKİMİYYƏTİNİN ASTARA ŞƏHƏR İNZİBATİ ƏRAZİ DAİRƏSİ ÜZRƏ NÜMAYƏNDƏLİYİ

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Astara şəhəri ərazisində küçələrin işıqlandırılması üçün elektrik mallarının satınalınması

**2.** Astara şəhəri ərazisində əkilmək üçün gül kollarının satınalınması

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 07.02.2019-cu il tarixinədək qəbul olunur. Maraqlanan təşkilatlar 0252251268 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Ünvan:** *Astara şəhəri, İstiqlaliyyət küçəsi 15*

## Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

## AÇIQ TENDER ELAN EDİR

**Tender 9 (doqquz) lot üzrə keçiriləçəkdir.**

**Lot 1.** Qadınların dövlət qadın siyasətinin həyata keçirilməsidə səmərəli fəaliyyətinə görə mükafatlandırılması, 8 Mart – Beynəlxalq Qadınlar Gününün qeyd edilməsi, görkəmli alim Zəhra Quliyevanın yubileyinə həsr olunmuş elmi-praktik konfrans, İnsan hüquqları sahəsində maarifləndirmə kampaniyasının aparılması, "Qadınlara qarşı zorakılığa yox deyək" konfransın keçirilməsi, Novruz bayramı münasibətilə tədbirlərin keçirilməsi.

**Lot 2.** "Mən fəxr edirəm ki, Azərbaycanlıyam", broşür və jurnalların hazırlanması mövzusunda tədbirlərin keçirilməsi. qadınların sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, erkən nikahların qarşısının alınması, seçkilərdə qadınların fəal iştirakı,

**Lot 3. "**Ailə bayramının keçirilməsi" mövzusunda tədbirin keçirilməsi, "Azərbaycan ailəsi" filmlər festivalının keçirilməsi, kütləvi informasiya vasitələrinin ailənin formalaşmasında rolu, cəmiyyətdə gedən sosial-iqtisadi və mədəni proseslərin ailədaxili münasibətlərə təsiri.

**Lot 4.** Azlıq təşkil edən millətlərin nümayəndələri ilə görüşlər, efir vaxtının alınması, beynəlxalq təcrübənin öyrənilməsi, narkotiklərə qarşı mübarizə, respublika rayonlarında ailə dəyərlərinin qorunub saxlanması, qadın hüquqlarının müdafiə mexanizmi, sayt üçün xəbərlər portalının yaradılması mövzusunda tədbir.

**Lot 5.** Uşaqların cəmiyyətə inteqrasiya olunması, qadınların nikah hüququ mövzusunda tədbir, uşaq hüquqlarının təbliği, məlumat bankının saxlanması, sağlam həyat tərzinin təbliği, milli-mənəvi dəyərlərin təbliği, erkən nikahlara qarşı maarifləndirmə işinin aparılması.

**Lot 6.** Uşaq əməyinin istismarının qarşısının alınması metodologiya və maarifləndirmə işlərin aparılması, məcburi köçkün uşaqların peşəyönümlüyünü öyrənmək, natamam ailələrdə böyüyən uşaqların monitorinqi, uşaqlar müharibənin günahsız qurbanları, gənclər təşkilatının fəalları ilə görüş.

**Lot 7.** Regionlarda qeyri-rəsmi nikahdan olan uşaqların problemləri, valideyn məsuliyyətinin artırılması, uşaqların bayram şənliklərinin təşkili, Uşaqların Müdafiəsi Günü, uşaq intiharlarının qarşısının alınması, dövlət himayəsində olan uşaqların yetkinlik yaşına çatdıqdan sonra sosial müdafiəsinin gücləndilrilməsi, Penitensiar Xidmətlə birgə tədbir, məktəb psixoloqları üçün təlimlər mövzusunda işlərin satınalınması məqsədilə keçiriləcək Tender müsabiqəsinin.

**Lot 8.** Bakı kəndlərində "Erkən nikah və onun fəsadları" adlı mariflənddirmə" mövzusunda tədbirlərin satınalınması məqsədilə keçiriləcək tender müsabiqəsinin, insan alverinin qurbanı olmuş uşaqların sosial reablitasiyası, qadınlara qarşı zorakılıqla mübarizə günü, uşaqlar və sağlam həyat tərzi, milli-mənəvi dəyərlər mövzusunda sosial çarxlar keçirilməsi və hazırlanması.

**Lot 9.** Tələbələr üçün maarifləndirici kitabların hazırlanması. Ümumdünya Uşaqların Müdafiəsi Günü ilə əlaqədar və selektiv abortların sonsuzluq problemlərinin araşdırılması" mövzusunda işlərin satınalınması məqsədilə keçiriləcək Tender müsabiqəsinin keçirilməsi, uşaqlar arasında intihar hallarının qarşısının alınması, uşaq və ailələrə dəstək mərkəzlərinin gördüyü işlər barədə hesabat.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübə.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderlə əlaqədər məlumat almaq üçün maraqlananlar əlaqələndirici müraciət edə bilərlər.

Əlaqə nömrəsi: 498-69-57 (saat 9-00-dan 18-00 dək bayram və bazar günlərindən başqa)

Ünvan: Ü.Hacıbəyli küçəsi 80, Hökumət Evi, IV qapı

İddiaçılar 50 (əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba ödənikdən sonra Əsas şərtlər toplusunu Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən (Ü.Hacıbəyli küçəsi 80, Hökumət Evi, IV qapı) ala bilərlər.

*Dövlət Xəzinədarlığı Agentliyi*
*Kod 210005*
*VÖEN 1401555071*
*MH AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T.BİK:CTREAZ 22*
*Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi*
*Hesab AZ71CTRE00000000000002318501*
*VÖEN 1700332731*
*Fond-7*
*Kitab nömrəsi-002306-2318501;*
*Funksional təsnifat-00113;*
*İqtisadi təsnifat-142340 (sair daxilolmalar)*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Bütün iddiaçılar prosedurda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-iştirak etmək üçün yazılı müraciət;*
*-İştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-İddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-İddiaçının bir il ərzində (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründə) maliyyə vəziyyət barədə bank tərəfindən verilmiş arayış;*
*-təklif (zərflərin açıldığı gündən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*-təklifin təminatı (zərflərin açıldığı gündən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*-son bir il ərzində (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründə) yerinə yetirdiyi analoji işlər haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır.

Bütün iddiaçılar tender prosedurunda iştirak etmək üçün yuxarıda göstərilən ixtisas sənədlərini 23 fevral 2019-cu il tarixə saat 18:00-a qədər tender komissiyasına təqdim etməlidirlər. İddiaçılar tender təkliflərini və təklifin 1 faizi məbləğində bank təminatını 02 mart 2019-cu il saat 18:00-a qədər ikiqat bağlı zərflərdə iki nüsxədə tender komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər qəbul olunmayacaq.

Təklif zərfləri iddiaçılarların iştirakı ilə 05 mart 2019-cu il saat 11:00-da Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində açılacaqdır.

## LƏNKƏRAN ŞƏHƏR İCRA HAKİMİYYƏTİ

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 2 lot üzrə keçirilir:**
**Lot 1** - Yolların əsaslı təmiri işləri
**Lot 2** - Abadlıq işləri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımı maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Ş.Axundov küçəsi 33 (Əlaqələndirici şəxs: Rövşən İsgəndərli, telefon: (025) 255-30-73) ünvanından ala bilərlər.

**İştirak haqqı:**
**Lot 1 - 100 manat**
**Lot 2 - 100 manat**
*Hesab: Fond 7Y*
*AZ54CTRE00000000000002512031*
*Büdcə səviyyəsinin kodu 142340*
*VÖEN: 2600029891*
*Bank: DXA*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*M/H: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T: BİK CTREAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*10. Digər sənədlər: İddiaçının analoji işlərdə təcrübəsi, potensial texniki və kadr imkanları haqqında rəsmi məlumatı.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 19 fevral 2019-cu il saat 17:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 28 fevral 2019-cu il saat 17:00 qədər Lənkəran şəhəri, Ş.Axundov küçəsi 33 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 01 mart 2019-cu il saat 12:00 tarixində Lənkəran şəhəri, Ş.Axundov küçəsi 33 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

## BİLDİRİŞ

"Azərbaycan Sənaye Korporasiyası" ASC "Azərtütün ASK" MMC üçün Qax və Şəki Tütün istehsalı və emalı məntəqələrinin hər birində 30 (otuz) ədəd yeni odlaqurutma kameraları quraşdırmaqla, onların yenidən qurulması işlərinin layihələndirilməsinə dair təkliflər sorğusu metodu ilə satınalma keçirmişdir. Satınalma prosesində ən aşağı qiymət təklifi verən Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin "Azərinşaatlayihə" Dövlət Baş Layihə Konstruktor Texnoloji İnstitutu qalib gəlmişdir. Həmin təşkilatla 07.01.2019-cu il tarixində 70 913.20 manat qiymətində müqavilə imzalanmışdır.

**"ASK" ASC Tender Komissiyası.**

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

## Gəmi boyalarının satınalınması məqsədilə

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2019-cu il yanvarın 23-ü saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1132.*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

## *Kranların illik texniki xidmətinin satınalınması məqsədilə*

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2019-cu il yanvarın 23-ü saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1132.*

## BİLDİRİŞ

"Azəralüminium" MMC tərəfindən **Təknə təmiri üçün Polad Millərin (Blyums)** satın alınmasına dair 28 noyabr 2018-ci il tarixində elan olunmuş Təkliflər sorğusunun qalibi "Changsha E-HU Machinery & Electronics Technology Co.,LTD." olmuşdur. Qalib elan olunmuş "Changsha E-HU Machinery & Electronics Technology Co., LTD." ilə "Azəralüminium" MMC arasında 15 yanvar 2019-cu il tarixində 1,009,072.40 manat məbləğində satınalma müqaviləsi imzalanmışdır.

## BİLDİRİŞ

"Azəralüminium" MMC tərəfindən **Təknə təmiri üçün Müxtəlif Növdə və Miqdarda Odadavamlı Materialların (Sement, Kərpic)** satın alınmasına dair 28 noyabr 2018-ci il tarixində elan olunmuş Təkliflər sorğusunun qalibi "Shanghai Richstone Supply Chain Management Co., LTD." olmuşdur. Qalib elan olunmuş "Shanghai Richstone Supply Chain Management Co., LTD." ilə "Azəralüminium" MMC arasında 15 yanvar 2019-cu il tarixində 1,036,546.10 manat məbləğində satınalma müqaviləsi imzalanmışdır.

## Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi 2019-cu il üçün tələb olunan avadanlığın alınması maddəsi üzrə

## AÇIQ TENDER ELAN EDİR

**Tender iki LOT üzrə aparılır:**
**LOT 1.** Mexanika işləri üzrə xidmətlər
**LOT 2.** Elektrik işləri üzrə xidmətlər

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımı maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqının göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Az 1114, Bakı şəhəri, Cavadxan küçəsi, məhəllə 32/15 ünvanından ala bilərlər.

**İştirak haqları:**
**LOT 1 - 150 manat**
**LOT 2 - 150 manat**
*Təşkilat: Akademik Z.Əliyeva adına Milli Oftalmologiya Mərkəzi*
*Hesab: AZ66CTRE00000000000004688301*
*VOEN: 1700252051*
*Bank: Dövlət Xəzinədarlıq Agentliyi*
*Kod: 210005*
*VOEN: 1401555071*
*Müxbir hesabı:*
*AZ41NABZ01360100000000003944*
*SWİFT: CTREAZ22*
*Büdcə səviyyəsinin kodu: Fond 7*
*Büdcə təsnifatının kodu: 142340*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün ərizə;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*-tender təklifi qiymətinin 1 faizi həcmində bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-İddiaçının son bir il ərzində fəalyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-İddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-İddiaçının analoji işlər üzrə təcrübəsi və potensial imkanları barədə məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 18 fevral 2019-cu il saat 16:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 26 fevral 2019-cu il saat 16:00-a qədər Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə (ünvan: Az 1114, Bakı şəhəri, Cavadxan küçəsi, məhəllə 32/15) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 27 fevral 2019-cu il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Əlaqələndirici şəxs: Nəzərli Ceyhun Anubət oğlu**
**Telefon: 012-569-09-45, 012-569-09-75**
**Ünvan: Az 1114, Bakı şəhəri, Cavadxan küçəsi, məhəllə 32/15**

**Tender Komissiyası.**

## Qəbələ Rayon Mərkəzi Xəstəxanası aşağıdakı maddələr üzrə satın almaları həyata keçirmək məqsədilə

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Dəftərxana və təsərrüfat xərcləri
**2.** Mətbəə xərcləri
**3.** İdarənin digər xərcləri
**4.** Digər nəqliyyat xərcləri
**5.** Yumşaq inventar
**6.** İnventar
**7.** Avadanlıq
**8.** Cari təmir
**9.** Əsaslı təmir
**10.** Maşın və avadanlıq (əsas vəsait)
**11.** Kommunal və kommunikasiya xidmətləri

Kotirovka sorğusunda iştirak etmək istəyənlər təklifləri və hüquqi sənədləri 05 fevral 2019-cu il saat 15:00-dək MRX Tender komissiyasına təqdim etməlidirlər.

**Ünvan:** *Qəbələ ş., A.Səhhət küçəsi 12*
**Əlaqə telefonu:** *024-20-5-13-46*
**Əlaqələndirici şəxs:** *Hüseynov Sadiq Sahib oğlu.*

## Qobustan Rayon Gənclər və İdman İdarəsi 2019-cu il üçün

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Sair xərclər
**Ünvan:** *Qobustan şəhəri, M.Balakişiyev küçəsi 12.*
**Tel.:** *(2024) 5-24-50*
*(051) 613-44-00.*

**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Bildirişi

Müdafiə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzinin tibb avadanlıqlarının köhnə binadan sökülüb, digər binada quraşdırılması və kolibrasiya edilməsi xidmətinin, həmçinin müxtəlif tibb və UPS qovşaqlarına dair avadanlıqların satın alınması üzrə keçiriləcək açıq tenderdə iştirak etmək üçün yetər sayda tender təklifi təqdim olunmadığına görə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən baş tutmamış hesab olunur.

**Müdafiə Nazirliyi Tender Komissiyası.**

Maşıyev Rabil Ayaz oğlunun adına verilmiş Bakı şəhəri, Yasamal rayonu, A.Abbasov, ev N-14, mənzil N-18 ünvanının H.D.Q.H.D.Ə.D.R şıxarış itdiyi üçün etibarsız sayılır.

"Bakı Metropoliteni" QSC kotirovka sorğusu elan edir. Avtomatik yanğın xəbərverici sistemlər üçün lazım olan avadanlıq və materialların satın alınması. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 23.01.2019-cu il saat 18.00 tarixinədək qəbul olunur. Təkliflər 24.01.2019-cu il tarixində saat 15:30-da açılacaqdır. Ünvan: Bakı ş., M.Rəfili 16, tel: (012) 490-00-91. Əlaqələndirici şəxs: İlqar Qasımov

Beyləqan şəhər Bələdiyyəsinin mülkiyyətində olan A seriyalı 194013 nömrəli Torpaq sahəsinin planı, kadastrı sənədi itdiyi üçün etibarsız sayılır.

Əlizadə Kənan Xanlar oğlunun adına Azərbaycan Respublikası (Gəncə şəhəri D.Q.İ.) DİN Baş DYP İdarəsinin qeydiyyat-imtahan şöbəsi tərəfindən verilən AE 110473 sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Bildiriş. "Bakı Metropoliteni" QSC tərəfindən keçirilmiş "1C proqramının təkmilləşdirilməsi üçün modulların alınması və tətbiq edilməsi işlərinin" "Açıq Tender" üsulu ilə satın alınmasına dair müsabiqədə "ERM SOFT" MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 09.01.2019-cu il tarixdə ƏDV-siz 55240,00 manat (əlli beş min iki yüz qırx manat 00 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır. "Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.

Bildiriş. "Bakı Metropoliteni" QSC tərəfindən 23.01.2019-ci il tarixdə keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni" QSC-yə 2019-cu il üçün illik nəzərdə tutulan kartriclərin satınalınması üzrə Açıq Tenderin vaxtı 05 fevral 2019-cu il tarixə saat 15:30-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25 yanvar 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 04 fevral 2019-cu il saat 17:00-a qədər Bakı şəhəri, M.Rəfili küçəsi 16 ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. "Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.

Lənkəran rayon aqrar islahat komissiyasının 16 may 1998-ci il tarixli 9 nömrəli qərarı ilə Separadi kənd sakini Kərimov Məmməd Möhsüm oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 254; KOD 80220018) itdiyi üçün etibarsız sayılır.

Lerik rayon aqrar islahat komissiyasının qərarı ilə Soru kənd sakini Nəsirov Cavanzadə Nəsir oğluna verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 167 A; KOD 80313058) itdiyi üçün etibarsız sayılır.

Abdullayev Fikrət Ağa Məmməd oğlunun adına məxsus Bakı şəhəri, S.Rüstəm küçəsi, ev 59, mənzil 59 ünvanına verilmiş qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

**Qazaxdan Novruz Abdullayev, Abbas Göyüşov və Elşad Məmmədov Bakı Dövlət Universitetinin Qazax filialının direktoru, professor, Əməkdar elm xadimi VÜSƏT ƏMİR oğlu ƏFƏNDİYEVİN vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.**

**BDU-nun İqtisadiyyat və idarəetmə kafedrasının əməkdaşları Pəri xanım Həsənovaya, anası GÜLAF xanımın vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● **Redaksiyanın telefonları:**

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● **Redaksiyanın ünvanı:**

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail:** resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi**
**Nəriman CAVADOV**

● **Çapa imzalanmışdır**
**15.01.2019**